RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 158 (8474) CÜMƏ AXŞAMI, 13 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV
# Xəzərdəki "Qarabağ"ın qüdrətini özünə qaytardı

## Neft-qaz yatağına geri dönüş və dənizdə ən böyük sualtı dayaq blokunun inşası Azərbaycanın real gücünün göstəricisidir

**Son 17 ildə regional və qlobal miqyasda enerji bazarlarında mühüm iştirakçıya çevrilən Azərbaycanın uğurlu neft-qaz strategiyasının icrası tarixində daha bir əlamətdar hadisə baş verdi. Azərbaycanın neft gəlirlərinin artmasına, bundan sonra uzun illər ərzində beynəlxalq neft-qaz bazarlarında aktiv iştirakçı kimi qalmasına böyük töhfə verəcək "Qarabağ" yatağının dayaq bloku dənizə yola salındı.**

Bu, əlbəttə ki, böhran şəraitində sosial-iqtisadi islahatlarını davam etdirən, qlobal layihələrin müəllifi və təşəbbüskarı kimi tanınan Prezident İlham Əliyevin neft-qaz strategiysının növbəti uğurudur.

Blokun istismara verilməsi mərasimində iştirak edən cənab İlham Əliyev həm "Qarabağ" yatağı, həm də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda hazırlanan möhtəşəm qurğunun funksiyası ilə bağlı maraqlı faktlar, fikirlər söylədi.

### "Qarabağ" yatağı

- Xəzərin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir;
- müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır;
- neft potensial - 60 milyon tonddan çoxdur;
- yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyu qazılacaq;
- ildə azı 1,5 milyon ton neft, 1,5-1,8 milyard kubmetr qaz hasil ediləcək.

### "Qarabağ" dayaq bloku

- İnşa edilmiş ən böyük sualtı qurğudur;
- şəbəkə tipli metal konstruksiya şəklində hazırlanıb;
- çəkisi 16 min tondan çox, hündürlüyü 190 metrə yaxındır;
- blokun tikintisi iki il ərzində reallaşıb;
- qurğu Xəzərdə dərinliyi 182 metr olan sahədə quraşdırılacaq;
- konstruksiyanın tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub.

### Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biri

Bu gün Azərbaycanda dünyaca məşhur "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarının işlənilməsi ilə yanaşı, bir çox digər perspektivli layihələr həyata keçirilir. "Qarabağ" yatağının istismara verilməsi Azərbaycanın neft strategiyasının daha uğurla reallaşdırılmasına və ölkəmizin neft gəlirlərinin artmasına böyük töhfə olacaq.

Dayaq bloku ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibə verən cənab İlham Əliyev yatağın yaranma tarixindən söz açaraq bildirdi ki, ölkəmizin zəngin karbohidrogen yataqlarından biri sayılan "Qarabağ"da Ulu Öndər Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində pay bölgüsü haqqında saziş imzalanıb. Bu yataqda 3 quyu qazılıb. Lakin xarici tərəfdaşlar "Qarabağ" yatağının səmərəliliyinə inanmayıblar. Bununla da sazişə xitam verilib və neft-qaz yatağı tərk edilib: "Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir".

Qeyd edək ki, yataqda sonuncu dəfə qazma işləri 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən aparılıb. Bu il SOCAR-ın və "Equinor" şirkətinin birgə qazma əməliyyatı vasitəsilə bu yataq məhz neft yatağı kimi kəşf olunub.

"Qarabağ" müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağı hesab olunur. Prezidentin söylədiyi kimi, "Azəri", "Çıraq", "Günəşli" yataqları sovet dövründə kəşf edildiyi, "Şahdəniz" və "Abşeron" yataqları qaz-kondensat yataqları olduqları üçün "Qarabağ" neft yatağı olaraq birinci yataqdır.

Ardı 3-cü səh.

# Paytaxta gətirilmiş yeni taksilərdə tam təhlükəsiz və rahat şərait təmin olunub




**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin 6 nəfərlik müştəri salonu olan, müasir standartlara cavab verən "LEVC TX" modelli yeni 100 ədəd "London taksi"si vətəndaşlar üçün xidmətə hazırdır.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də yeni taksilərlə tanış olub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Prezident İlham Əliyevə yeni taksilərin xüsusiyyətləri barədə məlumat verdi.

Nazir bildirdi ki, yeni taksilərdə həm sürücülər, həm də sərnişinlər üçün tam təhlükəsiz və rahat şərait təmin olunub. "LEVC TX" modelli yeni taksinin bir sıra üstünlükləri var. Belə ki, bu model taksilər yanacaq əvəzinə elektriklə işləyir. Avtomobillər həm ev şəraitində, həm də xüsusi quraşdırılmış məntəqələrdə cərəyanla təmin oluna bilər. Smart konfiqurasiyalı avtomobil 130 kilometrə qədər sırf elektriklə çalışır, sonra rejimin dəyişməsi mümkündür.

Ardı 2-ci səh.

# Müstəqilliyi şərtləndirən əsas amillərdən biri milli-mənəvi dəyərlərin qorunmasıdır

## Ulu Öndər Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatında bu vacib məsələ öz əksini geniş tapmışdır

**Hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini qoruyub saxlamaq, genetik yaddaşını, kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin fəaliyyəti ilə sıx bağlıdır. Belə missiyanı daşıyanlar daim ali məqsədlər uğrunda mübarizənin önündə dayanıblar.**

Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik edərkən xalqın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə, özünəməxsusluğunu şərtləndirən amilləri qorumağı ən vacib məsələ kimi dövlət siyasətinə çevirmişdi. Həmin dövrdə respublikaya rəhbərliyin bütün fəlsəfəsi yalnız xalqın milli dirçəlişi, qürur hisslərinin oyanışı məramına hesablanmışdı. Ümummilli Lider azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya maşını ilə boğulmasına imkan verməməklə yanaşı, milli məfkurə və düşüncə sahibi olan ziyalıları da qorumuşdu. Bu isə olduqca vacib məsələ idi.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində, kifayət qədər gərgin və taleyüklü bir məqamda xalqa rəhbərlik missiyasını öz üzərinə götürən Ümummilli Lider Heydər Əliyevin yürütdüyü siyasət bu dəfə də xalqın tarixi ənənələrinin, milli-mənəvi dəyərlərinin, özünəməxsusluğunun qorunub saxlanılmasına, qloballaşmanın mənfi təsirlərinin aradan qaldırılmasına xidmət kimi yaddaşlara yazıldı.

Ardı 2-ci səh.




# Azərbaycan pandemiya ilə mübarizədə də öz gücünə arxalanır

## **Prezident İlham ƏLİYEV:** "Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik"

**Hələ neçə ay əvvəl, COVID-19 Azərbaycana çatar-çatmaz Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, ölkədə pandemiyaya qarşı mübarizə, onun mənfi fəsadlarının aradan qaldırılması üçün geniş tədbirlər planı hazırlandı və təsdiq olundu.**

Həmin vaxtdan bu tədbirlər ardıcıllıqla icra edilir. Azərbaycan xalqının dünyanı bürümüş bu bəladan minimum itkilərlə çıxması üçün genişmiqyaslı, çoxşaxəli işlər görülür, bir sözlə, bütün qüvvələr səfərbərliyə alınıb.

Bu il avqustun 6-da Prezident İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədə indiyədək nəzərdə tutulan işlərin real həyatda öz əksini necə tapdığı barədə ətraflı bəhs olunmuşdur.

Ardı 10-cu səh.

# Azərbaycanda İnvestisiya Holdinqinin yaradılması qlobal çağırışlara verilən strateji cavabdır

**Koronavirus pandemiyası qlobal iqtisadiyyata ağır zərbə vurur. Dünyanın bir çox dövlətləri vəziyyəti nizamlamaq üçün yardım umur, əlavə investisiya mənbələri axtarırlar. Azərbaycan isə belə mürəkkəb iqtisadi vəziyyətdə beynəlxalq qurumlara müraciət etmədən daxili imkanlarına güvənir.**

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında imzaladığı fərman ölkədə həyata keçirilən davamlı struktur islahatlarının səmərəliliyinin artırılmasına, milli iqtisadiyyatın özəyi olan təsərrüfat strukturlarında idarəetmənin sağlam prinsiplər əsasında inkişafına yeni imkanlar yaradır.

Azərbaycan iqtisadiyyatında dövlət müəssisələrinin (DM) xüsusi çəkisi böyükdür və onların məşğulluqda payı təqribən 25 faizdir. 15 ən iri DM-in aktivlərinin həcmi ölkənin ümumi daxili məhsul istehsalı ilə müqayisə edilə bilən səviyyədədir. Dövlət səhmdar olaraq DM-lərin müasirləşməsi, texnoloji yenilənməsi, kapitallaşması və maliyyə dayanıqlılığını təmin edərək onların səmərəlilik baxımından yeni inkişaf səviyyəsinə yüksəlişinə zəmin yaratmışdır. Bu baxımdan Dövlət İnvestisiya Holdinqinin yaradılması DM-lərin fəaliyyətinin təkmilləşdirilməsi, həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin artmasını stimullaşdıracaq. Yeni yaradılan qurum qabaqcıl korporativ idarəetmə prinsiplərinin tətbiq olunmasını asanlaşdıracaq, aparıcı özəl müəssisələrin səmərəlilik, şəffaflıq və hesabatlılıq əsasında fəaliyyətlərini təmin etməyə imkan verəcəkdir.

İqtisadçı ekspertlər belə hesab edirlər ki, bu qurumun fəaliyyətə başlaması ilə DM-in səmərəliliyi artacaq, onların beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyi güclənəcəkdir. Yerli DM-lər xarici bazarlara çıxdıqca və ya xaricdə fəaliyyətlərini genişləndirdikcə onların rəqabətqabiliyyətlilik önəmi daha da artacaq.

Ardı 2-ci səh.



# Nümunəvi mübarizə modeli

## Müsbət dinamika dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qabaqlayıcı tədbirlərin göstəricisidir

**Dünyanın bütün nizamını pozan, bəşəriyyəti çətin və gözlənilməz sınaqlarla üz-üzə qoyan koronavirus pandemiyası sürətlə yayılmaqda davam edir.**

Dövlətlərin apardığı mübarizə metodlarına, sərt qaydalara, sosial izolyasiya tədbirlərinə rəğmən səkkiz aydır virusun yayılmasını lokallaşdırmaq mümkün olmayıb. Əksinə, COVID-19 daha da aqressiv şəkildə "öz işini görməkdədir". Hətta Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Gebreyesus Cenevrədə keçirilən brifinqdə koronavirusa yoluxma hallarının sayının bu həftə 20 milyona, ölüm hallarının sayının isə 750 minə çatacağını proqnozlaşdırıb. ÜST rəhbəri bir daha vurğulayıb ki, pandemiya ilə səmərəli mübarizədə iki element son dərəcə vacibdir - liderlər tərəfindən qətiyyətli tədbirlərin görülməsi və vətəndaşlar tərəfindən onlara dəstək göstərilməsi.

Dünyanın bir parçası olan Azərbaycanda da qlobal pandemiyaya qarşı mübarizənin kökündə bu iki amil dayanır. Dövlətimiz ilin əvvəlindən, virusun hələ ölkəmizin sərhədlərinə yaxınlaşmasından öncə COVID-19 pandemiyasının yayılmasına qarşı qətiyyətli və qabaqlayıcı addımlar atmağa başladı.

Ardı 10-cu səh.

# Paytaxta gətirilmiş yeni taksilərdə tam təhlükəsiz və rahat şərait təmin olunub





*Əvvəli 1-ci səh.*

Bu isə ətraf mühitə və ekologiyaya ziyanın sıfıra endirilməsi deməkdir.

Smart texnologiyaların geniş tətbiq edildiyi taksilər həm sürücü, həm də sərnişinlər üçün təhlükəsizdir. Belə ki, avtomobil özü yoldakı sürət həddi barədə sürücünü xəbərdar edir. Sürücü idarəetməni itirdikdə və ya yol trayektoriyasını dəyişdikdə xüsusi sensorlar ona müvafiq məlumatı ötürür.

Yeni taksilərin sərnişin kabinəsi digər "London taksi"lərindən fərqli olaraq daha genişdir və altı oturacağı var. Avtomobillərdə USB portlar, "Wi-Fi" və GPS quraşdırılıb. Sürücü ilə sərnişin arasında əlaqəni minimuma endirmək üçün şüşə arakəsmə mövcuddur. Bu isə pandemiya dövründə təcrid və sosial məsafə baxımından da olduqca əlverişlidir. Kabinədə sürücü ilə əlaqə üçün xüsusi mikrofon, görmə qüsurlu sərnişinlər üçün brayl əlifbası ilə idarəetmə paneli, eşitmə əngəllilər üçün isə təlimat lövhəsi var. Avtomobil fiziki əngəllilər üçün pandusla təchiz edilib. Bu taksilərdə ödənişi post-terminal vasitəsilə də həyata keçirmək mümkün olacaq.

Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda paytaxtda "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin 1200 taksisi sakinlərə xidmət göstərir. London "TX4" modelləri 5 nəfərlikdir.

Onu da qeyd edək ki, yeni gətirilən taksilər "Android" sistemi ilə təchiz olunub. Bu isə sürücülər üçün geniş imkanlar açır. Belə ki, sürücülər bütün prosesi monitor vasitəsilə idarə edə bilir.

Yeni taksilərin Bakıya gətirilməsi paytaxtda sərnişindaşımanın bu növü üzrə xidməti daha yüksək səviyyəyə qaldırmağa imkan verəcək.

Sonra Prezident İlham Əliyev yeni taksini idarə etdi.





## Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi"nin 4.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikasının Baş Naziri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Azərbaycan Respublikasının Maliyyə naziri.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2020-ci il*

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib

Avqustun 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.

Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.

İclasda pandemiya ilə əlaqədar Yeni Azərbaycan Partiyasının gördüyü işlər barəsində qısa məlumat verilib. Qeyd edilib ki, Azərbaycan Respublikasında koronavirus pandemiyasının geniş yayılmaması və pandemiyanın vura biləcəyi zərərin qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilib. Yeni Azərbaycan Partiyası da öz növbəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü və birbaşa rəhbərliyi altında epidemiyanın qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərdə yaxından və fəal iştirak edib, bu istiqamətdə bir sıra mühüm aksiyalar keçirib.

İclasda Yeni Azərbaycan Partiyasının Nəsimi, Ağdaş və Ağdam rayon təşkilatlarının hesabat-seçki konfranslarından ötən dövr ərzində fəaliyyətinə dair hesabatı dinlənilib.

İdarə Heyətinin iclasında hesabatı dinlənilən rayon təşkilatlarının fəaliyyəti qənaətbəxş hesab edilib, onların gələcək fəaliyyətinə dair tövsiyələr verilib.

İclasda daha sonra partiya həyatı ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

# Azərbaycanda İnvestisiya Holdinqinin yaradılması qlobal çağırışlara verilən strateji cavabdır

*Əvvəli 1-ci səh.*

Dövlət İnvestisiya Holdinqi DM-lərin korporativ idarəetmə orqanlarında iştirak etməkdə məqsədi onların ölkənin iqtisadi qüdrətinin daha da artmasına töhfə verməsinə zəmin yaratmaqdır. Bu müəssisələrin əldə etdiyi mənfəət iqtisadiyyatın inkişafına yönəldiləcək. Nəticədə dövlət şirkətlərinin fəaliyyət göstərdiyi sahələrə özəl investisiyaların cəlbi, dövlət-özəl tərəfdaşlığının stimullaşması, DM-lər və özəl sektor arasında rəqabətin ədalətli və bərabər şərtlərlə aparılması qanunvericilik çərçivəsində nizamlanacaq.

Mütəxəssislər Azərbaycanda İnvestisiya Holdinqinin yaradılmasını strateji qərar kimi dəyərləndirir və belə hesab edirlər ki, bununla milli iqtisadiyyatımızın neftdən asılılığını minimum həddə endirmək mümkündür. COVID-19 pandemiyasının yaratdığı qlobal çətinliklər iqtisadiyyatların dirçəldilməsi üçün hər bir dövləti fərqli və daha çevik qərarlar qəbul etməyə vadar edir. Belə bir vəziyyətdə ölkə iqtisadiyyatının qorunması və inkişafı məqsədilə yeni və effektiv metodların, iqtisadi alətlərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Hazırda bütün dünyada investorların həddən ziyadə ehtiyatlı olması, planetar miqyasda sərmayə qıtlığının yarana bilməsi ehtimalı milli resursların, xüsusilə dövlət şirkətlərinin mövcud potensialının milli iqtisadiyyatın inkişafına istiqamətləndirilməsi zamanın tələbidir.

Yeri gəlmişkən onu da deyək ki, dövlət investisiya holdinqi bir idarəetmə institutu kimi dünyada çoxdan tətbiq olunur. Bu idarəetmə sistemi Sinqapur, Malayziya, Qazaxıstan və digər ölkələrdə özünü doğrultmuşdur. Bu baxımdan Azərbaycanda İnvestisiya Holdinqinin yaradılması aktual bir yanaşma kimi qiymətləndirilməlidir. Çünki hazırkı şəraitdə ölkəmizin iqtisadiyyatının dayanıqlılığının qorunması, pandemiya böhranının təsirinin azaldılması üçün ən mühüm şərtlərdən biri məhz investisiyaların dinamikasında müsbət tendensiyaya nail olmaqdır.

Professor Elşad Məmmədov qeyd edir ki, hazırkı mürəkkəb şəraitdə respublikamızda ilin əvvəlindən başlayaraq investisiya yatırımlarında müəyyən azalma müşahidə olunur. O, Prezidentin belə bir fərman imzalamasını və son müşavirədə dövlət şirkətlərinin idarə edilməsindəki problemləri qabartmasını belə dəyərləndirir: "Bu istiqamətdə dönüş nöqtəsi kimi məhz investisiyaların artımı və kapital qoyuluşlarının effektivliyinin təmin olunması əsas götürülməlidir. Düşünürəm ki, Prezident İlham Əliyevin də bildirdiyi kimi, Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətində ekspert və alimlərin iştirakının təmin edilməsi holdinqin menecmentinin idarə edilməsinin xeyli dərəcədə effektivliyini artıra bilər. Bununla da Azərbaycanda dövlət və özəl kapital qoyuluşları istiqamətində ciddi şəkildə artıma nail ola bilərik".

Beləliklə deyə bilərik ki, milli iqtisadiyyatımızın artan xətt üzrə inkişafını təmin etmək üçün zəruri olan növbəti addım atılmış və dövlət başçısı tərəfindən təhlükələri sığortalamaq, iqtisadi imkanları vacib sahələrə fokuslandırmaq üçün düzgün qərar qəbul edilmişdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Müstəqilliyi şərtləndirən əsas amillərdən biri milli-mənəvi dəyərlərin qorunmasıdır

## Ulu Öndər Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatında bu vacib məsələ öz əksini geniş tapmışdır

*Əvvəli 1-ci səh.*

Bütün varlığı ilə ali mənəvi dəyərlərə bağlı olan Ulu Öndər yeni ictimai-iqtisadi formasiyada mənəviyyat məsələlərinin xüsusi diqqət mərkəzində saxlanılmasının vacibliyini düzgün qiymətləndirərək, bu istiqamətdə sistemli və ardıcıl siyasət yürütdü, milli dəyərlərin, əxlaq normalarının ictimai şüurda möhkəmlənməsinə, eyni zamanda, mədəni sərvətin qorunub yaşadılmasına çalışdı. Qərbin kosmopolit ideyalarının sürətlə yayıldığı bir dövrdə milli məfkurənin mühafizəsi, habelə azərbaycançılığın mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi, dini dəyərlərin, adət-ənənələrin gənc nəslə aşılanması istiqamətində həmin illərdə kompleks tədbirlər həyata keçirildi.

Xalqımızın milli düşüncə və şüurunda tarixi ənənələrə söykənmiş əxlaq kateqoriyasının dərin kök salması bütün dövrlərdə özünü göstərib. Ulu Öndər bunu yaxşı bildiyi üçün bu amilə xüsusi diqqət yetirilməsini nəinki vacib sayır, hətta, yeri gəldikcə hamıdan ciddi tələb edirdi.

Ümummilli Lider sadəlik, düzgünlük, vicdanlılıq, ləyaqətlilik, məğrurluq, mərdlik, cəsarətlilik kimi normaları daim uca tutaraq, irəli çəkdiyi, etimad göstərdiyi kadrların da bu keyfiyyətlərə malik olmasına ciddi yanaşırdı. Məhz buna görə də idarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, ədalətə bağlı olması da onun zəngin mənəviyyatından irəli gəlirdi. Heydər Əliyev gücün siyasətinə qarşı qanunun gücünü qoyaraq hesab edirdi ki, "haqlı həmişə güclüdür".

Milli-mənəvi dəyərlərə bağlı olan Ümummilli Liderin ciddiliyinin humanistliyini üstələməməsi onun dahiliyini və müdrikliyini təsdiqləyirdi. Keçmişlərdə səhvlərə yol vermiş bəzilərini bağışlaması da buradan irəli gələn keyfiyyətlərindən idi: "Mən dəfələrlə demişəm, heç kəsə damğa vurmaq olmaz. Heç kimi keçmiş səhvlərinə görə cəmiyyətdən təcrid etmək olmaz. Əgər bir adam dünən səhv etmişdirsə, yolunu azmışdırsa və bu gün düz yolla gedirsə, xalqla birlikdədirsə, qanuna riayət edirsə, buna söz yoxdur".

Müxtəlif dövlət tədbirlərində gəncləri mənəviyyat, əxlaq, təlim-tərbiyə məsələlərinə xüsusi həssaslıqla yanaşmağa çağıran Ulu Öndər bunu daim diqqətdə saxlayırdı. Ötən əsrin 90-cı illərinin sonuna doğru Azərbaycan gəncliyi müxtəlif yad təsirlərə, yabançı neqativ dəyərlərin, ictimai şüurda həzm olunmayan "ənənələrin" hücumuna məruz qalırdı. Həmin dövrdə xalqın qəlibləşmiş milli-mənəvi, əxlaqi dəyərlərini sıradan çıxarmağa yönələn "universal" və ya "kosmopolit" dəyərlərin gənclər arasında təbliği geniş vüsət almışdı ki, bu da Ümummilli Lider Heydər Əliyevi ciddi narahat edən məsələlər idi.

Bəşəri və milli ideallar, zəngin mənəvi dəyərlər ifrat praqmatikləşmiş kapital münasibətləri fonunda müəyyən aşınmaya məruz qalır. Belə bir şəraitdə gənclərdə milli mənlik şüurunu qoruyub saxlamaq, özünüdərki gücləndirmək son dərəcə aktual problem kimi önə çıxır. Yeni yüzilliyin əvvəlində Azərbaycanın da belə bir vəziyyətlə üzləşmək təhlükəsində olduğunu görən Ulu Öndər xüsusilə də gəncləri milli-mənəvi dəyərlərə, adət-ənənələrə hörmətlə yanaşmağa, onları mənəvi ucalığa dəvət edirdi: "Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

2001-ci il avqustun 13-də belə bir tarixi bəyanatın verilməsi o dövrün sosial-ictimai reallıqlarından irəli gəlirdi. Məsələ burasındadır ki, 90-cı illərdə yeni münasibətlər sisteminə keçid insanların təkcə yaşayış tərzinə deyil, ümumiyyətlə, dünyagörüşünə də təsir edir, xüsusən də gənc nəslin milli ruhda yetişməsinə mane olurdu. 1998-ci il avqustun 6-da mətbuat üzərində senzuranın birdəfəlik aradan qaldırılması, cəmiyyətdə tam demokratik, azad mühitin formalaşması şəraitində kütləvi informasiya vasitələrinin fəaliyyətində xaotik vəziyyətin yaranması yaddan çıxa bilməz. Bundan sui-istifadə edən bəzi mətbu orqanlar mənəvi dəyərlərdən uzaq olan, açıq-saçıq materiallara - yazılara, fotolara yer verir, bilərəkdən, ya bilməyərəkdən cəmiyyətdə mənəvi dəyərlərin aşınması prosesində fəal iştirak edirdilər.

Cəmiyyətin yüksək milli ideallar uğrunda səfərbər edilməsində, xalqın özünəməxsusluğunu şərtləndirən dəyərlərin gənc nəslə aşılanmasında, yüksək bədii-estetik zövqün, musiqi duyumunun formalaşmasında, insanların maariflənməsində, obyektiv informasiya təminatında həlledici rol oynamalı olan televiziyaların əksəriyyətində də tamamilə fərqli mənzərə baş alıb gedirdi. Kommersiya maraqlarına hesablanan bayağı və primitiv verilişlərin, filmlərin sayının getdikcə artması cəmiyyətin mütərəqqi inkişaf harmoniyasına zərbə vurur, əxlaqi dəyərlərin deqradasiyası prosesini sürətləndirir, gənc nəsildə meşşan həyat tərzinə marağı artırırdı. Müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizi işğal altında olan, təxminən 1 milyon vətəndaşı qaçqın və məcburi köçkün kimi yaşayan Azərbaycanda hərbi-vətənpərvərlik verilişlərinin azlığı kifayət qədər narahatlıq doğuran məqamlardan idi.

2001-ci il 13 avqust tarixli bəyanatında Ulu Öndər Heydər Əliyev çox həssas və vacib məqamlara toxunur, ölkə vətəndaşlarını ziyanlı meyillərə qarşı mübarizə aparmağa, milli-mənəvi, əxlaqi dəyərləri mühafizə etməyə çağırırdı: "Ölkəmizin dərdi var, bu, ümumi dərddir. O da Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və xüsusən bu torpaqlardan didərgin düşmüş, çadırlarda yaşayan insanların öz yerlərinə-yurdlarına qaytarılması dərdidir. Hələ ki, bunun mümkün olmadığı halda onların o çadırlarda minimum yaşayışını təmin etmək - bunlar bizim ümumi dərdimizdir. Amma bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, öz vəzifələrindən sui-istifadə edərək zənginləşmiş, harınlaşmış insanlar və onların övladları eyş-işrət içərisindədir, o biri tərəfdən, çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyətlər çəkirlər. Hər bir vətənpərvər insan düşünməlidir ki, əgər mənim xalqımın bir hissəsi belə ağır vəziyyətdədirsə, mən bu qədər harınlaşmamalıyam. Amma harınlayanlar, bəzi zənginləşmiş adamlar var".

Əlbəttə, cəmiyyətin tarixi inkişaf qanunauyğunluğunun özünüqoruma instinktindən doğan müqavimət hissinin qabarıq şəkildə üzə çıxması da Ümummilli Lider amili ilə şərtlənir. Hər bir məsələdə Ulu Öndərin ideyalarına söykənən Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, milli-mənəvi dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan çağdaş dövrün reallıqları ilə şərtlənir. Dövlət başçısının milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir.

Dövlət başçısı daim vurğulayır ki, bu gün milli ideologiyamızın əsas tərkib hissələrindən biri də məhz azərbaycançılıqdır. Ümummilli Lider Heydər Əliyevin müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda, bir sözlə, mənəvi mədəniyyətin bütün sahələrində istiqamətləndirici məfkurə olmalıdır. Əsrlərdən miras qalmış mütərəqqi mənəvi dəyərlər Azərbaycan xalqının milli mövcudluğunun və dövlətçiliyinin qarantına çevrilməlidir. Eyni zamanda hər bir vətəndaş bu torpağa, vətənə, xalqa mənsubluğu, milli-mənəvi, dini dəyərləri ilə qürur duymalıdır.

Sağlam mənəviyyatlı, yüksək bilikli insanlardan ibarət cəmiyyət qarşıya çıxan bütün problemləri asanlıqla həll edir, monolit qüvvə kimi fəaliyyət göstərir. Onun sağlamlığı, əsasən, bir göstəricidə - iqtisadi və mənəvi tərəqqi amilində özünü daha qabarıq büruzə verir. Bu gün dünya Azərbaycanda baş verən görünməmiş iqtisadi tərəqqinin şahididir.

Azərbaycan Prezidenti İlham Əliyevin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarca fərman və sərəncamlar, dövlət proqramları imzalaması onun böyüməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı, habelə qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır. Bütün bunlar, eyni zamanda, mənəvi yüksəlişə, intibaha xidmət edən mühüm addımlar kimi cəmiyyətin pozitiv ruhda inkişafına təkan verib.

Onu da unutmayaq ki, ölkədə klassik irs və milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr mühüm əhəmiyyət daşıyır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt də məhz milli genofondun, milli-mənəvi irsin qorunması məqsədi daşıyır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV*: “Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir”



“Bu günlərdə Ermənistan özünün yeni Milli Təhlükəsizlik Strategiyasını ictimaiyyət üçün açıqlayıb. Strategiyaya ön söz kimi yazılmış qeydlərdə baş nazir N.Paşinyan geniş şəkildə erməni tarixinə istinadlar edir, Ermənistan dağlıq yaylası, Hayk, çar Artaşes, Arşakilər, Van çarlığı, soyqırımı və s. kimi mifik tarixi məqamlara toxunur ki, bu da format olaraq belə sənədlərə tamamilə uyğun gəlmir”.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı AZƏRTAC-a şərhində yer alıb.

Prezidentin köməkçisi qeyd edir ki, ümumiyyətlə, Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir. Adətən belə sənədlərdə tarixə bu qədər istinadlar olmur. Hiss olunur ki, Ermənistan yenə də keçmişin girovluğundan qurtula bilməyib və çatışmazlıq kompleksi özünü bu sənəddə də büruzə verib.

Strategiya ilə tanış olduqca orada şovinist, ksenofob və irqçi dəyərlərin təbliğ edildiyi dərhal sezilir. Erməni xalqının böyüklüyü, onun digər xalqlardan üstünlüyü barədə, eləcə də qonşu xalqlara qarşı dözümsüzlük kimi mesajlar verilir. Ermənistanın baş naziri Vahan Teryanın şeirindən gətirdiyi sitatla böyük Babil sivilizasiyasının yer üzündən silinməsini şadyanalıqla qarşılayır. Əslində, Strategiyanın bütün məğzi “Babil bizim düşmənimiz idi. Bəs indi haradadır? Səhralarla örtülüb” sitatında cəmləşib. Bu düşüncə sahiblərinin Yaxın Şərqdə qədim tarixi abidələri dağıdan terrorçulardan heç bir fərqi yoxdur. Bütün bunları görəndə, faşist Qaregin Njdenin “Sekaqron” kimi şovinist nəzəriyyəsinin necə yaranmasının və belə ideologiyaların nəyə görə Ermənistanda bu dərəcədə geniş təbliğ olunmasının səbəbləri tam aydın olur.

Bəlkə də Ermənistandan başqa heç bir ölkənin Milli Təhlükəsizlik Strategiyasında şeir yer almayıb.

Sənəddə “məxməri inqilab”a toxunulur və onun yeni standartlar müəyyən etdiyi bildirilir. Əslində, Milli Təhlükəsizlik Strategiyasında bu tipli istinad sənədin formatına uyğun deyil və məntiqsizdir. Çünki belə sənədlərdə hər hansı bir siyasi qüvvə təbliğ edilməməli, dövlətin ümumi və uzunmüddətli təhlükəsizlik konsepsiyası təsvir olunmalıdır. Yəni konsepsiya hakimiyyətdəki qüvvələrə deyil, dövlətin maraqlarına uyğun bir sənəd olmalıdır. Belə çıxır ki, sabah Ermənistanda N.Paşinyana və “məxməri inqilab”a əks olan qüvvələr hakimiyyətə gəldikdən sonra bu strategiya avtomatik surətdə artıq etibarsız olacaq. Belə təəssürat yaranır ki, bu Ermənistanın deyil, Soros və ona yaxın dairələrin dəstəyi ilə baş vermiş “inqilab” nəticəsində hakimiyyətə gələn, Soros fondundan pul alan N.Paşinyan hakimiyyətinin Milli Təhlükəsizlik Strategiyasıdır.

Sənəddə Ermənistan-Azərbaycan münaqişəsinə dair çoxsaylı istinadlar edilir, Azərbaycan tərəfi günahlandırılır və guya Azərbaycanda ermənifobiyanın olduğu bildirilir. Bundan əlavə, sənəddə Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarında yaratdığı qanunsuz rejimlə bağlı məqamlar yer alır.

Bununla bağlı vurğulamaq istərdim ki, strategiyada münaqişə ilə bağlı fakt və arqumentlər də saxtadır. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal edib. Ermənistan azərbaycanlılara qarşı soyqırımı törədib, etnik təmizləmə həyata keçirib, müharibə cinayətləri törədib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə baxmayaraq, Ermənistan hələ də öz ordusunu işğal etdiyi ərazilərdən geri çəkməyib. Ermənistan işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət, o cümlədən qeyri-qanuni məskunlaşma siyasəti aparır. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan izlərini yox etməyə çalışır. Ermənistan təmas xəttində və dövlət sərhədində atəşkəsi kobud şəkildə pozaraq təxribatlar törədir, qəsdən Azərbaycanın mülki əhalisini və obyektlərini atəşə tutur. Ermənistan danışıqlarda maraqlı deyil, süni olaraq status-kvonu uzatmağa və işğalı möhkəmləndirməyə çalışır.

2016-cı ilin Aprel döyüşləri barədə uydurma fikirlərlə bağlı qeyd etmək istərdim ki, həmin vaxt Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti təxribata əl atmışdı. Azərbaycan öz əhalisini qorumaq üçün cavab tədbirləri görmək məcburiyyətində qalmışdı. Ermənistanın Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribat zamanı da növbəti dəfə mülki əhali və mülki obyektlər qəsdən hədəfə alınıb.

Sənəddə xalqların öz müqəddəratını təyinetmə prinsipinə bir neçə dəfə istinadlar edilir. Qeyd edilir ki, qondarma qurumun öz müqəddəratını təyinetmə hüququ qeyri-şərtsiz tanınmalıdır.

Ermənistan işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışır. Heç bir halda bu prinsip Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə aid edilə bilməz. Bu, öz müqəddəratını təyinetmə yox, işğaldır. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və buna alternativ yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Qondarma qurumun qeyd-şərtsiz və məhdudiyyətsiz öz müqəddəratını təyinetmə hüququnun tanınmasını tələb edən və bu qanunsuz rejimi “azad ölkə” kimi tanıyan bu strategiya sənədi özlüyündə Ermənistan tərəfindən ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə vurulmuş növbəti ağır zərbədir. Hesab edirəm ki, həmsədrlər və ümumiyyətlə, beynəlxalq ictimaiyyət bu sənədə reaksiya verməlidir.

Ümumiyyətlə, Ermənistanın özünə aid olan bir sənəddə başqa dövlətin ərazisinə dair şərhlərin verilməsi işğalçılıq siyasətinin bariz nümunəsidir.

Sənəddə iddia olunur ki, Ermənistan ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlara sadiqdir. Lakin bu ölkənin baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə”, müdafiə nazirinin “yeni torpaqlar naminə yeni müharibə” kimi bəyanatları, qondarma rejimi tərəf kimi danışıqlara cəlb etmək cəhdləri, eləcə də Strategiyada münaqişə ilə bağlı təxribat xarakterli fikirlər sübut edir ki, Ermənistan məqsədli şəkildə danışıqlar prosesini pozur və onun niyyəti işğalı davam etdirməkdir.

Strategiyada qeyd olunur ki, qondarma qurumun təhlükəsizliyini, eləcə də Ermənistan da daxil olmaqla xarici dünya ilə təhlükəsiz və şaxələnmiş kommunikasiyasını təmin edəcək lazımi müdafiə xətləri olmalıdır. Bununla Laçın rayonu və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə bitişik digər işğal olunmuş rayonlara işarə edilir. Bu bir daha onu göstərir ki, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qaytarmaq niyyəti yoxdur.

Sənəddə bir neçə yerdə qeyd olunur ki, Ermənistan qondarma qurumun təhlükəsizliyinin qarantıdır. Bu, işğalın açıq etirafıdır. Bundan əlavə iddia edilir ki, Azərbaycanın münaqişəni hərbi yolla həll etmək cəhdi qondarma qurumun əhalisinin fiziki mövcudluğuna təhdiddir. Əslində isə Ermənistanın işğalçı siyasəti Azərbaycanın mülki əhalisinin öz doğma torpaqlarında fiziki mövcudluğuna son qoyub. Ermənistan bir milyona yaxın mülki azərbaycanlını öz doğma yurdlarından qovmaqla etnik təmizləmə siyasəti həyata keçirib.

Strategiyada bildirilir ki, danışıqlar prosesinin məqsədi “müharibənin nəticələrinin qorunması”dır. Bu, açıq şəkildə göstərir ki, Ermənistan Azərbaycan ərazilərinin işğalını davam etdirmək niyyətindədir və dayanıqlı sülhə xidmət edən danışıqlarda maraqlı deyil.

Sənədlə tanış olduqca Ermənistanın Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi son təxribatın məqsədyönlü şəkildə həyata keçirilməsi bir daha aydın olur.

Strategiyanı oxuduqca Ermənistanda azərbaycanafobiya aydın sezilir. Bu ölkədə azərbaycanlılara qarşı açıq nifrət aşılanır.

Sənəddə Azərbaycan tərəfindən guya ermənilərə qarşı həyata keçirilmiş uydurma qırğınlardan danışılır. Gəncə Qandzak adlandırılır. Azərbaycanlılara qarşı soyqırımı və vəhşiliklər törətmiş, Ermənistanda və işğal edilmiş ərazilərdə Azərbaycan irsini məhv edən və toponimlərini dəyişdirən bir ölkənin bu iddiaları əsl riyakarlıqdır.

Strategiyada deyilir ki, Ermənistan cəmiyyətində zorakılıq və ksenofobiyaya yer yoxdur. Əslində isə Ermənistan öz ərazisindən, eləcə də işğal etdiyi torpaqlardan 1 milyondan çox azərbaycanlını zorakılıqla qovub. Ermənistan məscidləri, tarixi abidələri, qəbirləri dağıdan bir ölkədir. Ksenofobiyanın həddi o səviyyədədir ki, Yerevandakı Göy məscidin, Şuşadakı Yuxarı Gövhər ağa məscidinin memarlıq xüsusiyyətləri və mahiyyəti dəyişdirilir, İran abidələri kimi qələmə verilir. Ermənistanda böyük Azərbaycan şairi aşıq Ələsgərin qəbri dağıdılıb. Ermənistanın keçmiş prezidenti 2003-cü ildə Avropanın mərkəzində qeyd etmişdi ki, “ermənilərlə azərbaycanlılar etnik cəhətdən uyğunsuzdur”.

Sənəddə qeyd olunur ki, ermənilər XX əsrin ilk “soyqırımı”nın qurbanlarıdır və Ermənistan beynəlxalq səviyyədə soyqırımının qarşısının alınması mövzusuna xüsusi diqqət yetirir. Bu da növbəti yalandır. Ermənistan özü XX əsrin sonlarında Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib.

Strategiyada Türkiyəyə qarşı da fikirlər öz əksini tapır, qondarma soyqırımına istinadlar edilir. Bunun səbəbi Türkiyənin beynəlxalq hüququ və tarixi ədaləti əsas tutaraq Ermənistanı Azərbaycanın işğal edilmiş ərazilərini azad etməyə çağırmasıdır. Mifik tarixə köklənən Ermənistan bir daha nümayiş etdirir ki, qonşuları ilə sülh şəraitində yaşaya bilmir və bu səbəbdən də Ermənistanın bir dövlət kimi gələcək inkişafı mümkün deyil.

Sənəddə qeyd olunur ki, regionda demokratiya və insan haqları sahəsindəki geriləmə Ermənistanı narahat edir. Əlavə edilir ki, Azərbaycan və Türkiyədə demokratiya və insan haqları sahəsində geriləmə var və bu da bu ölkələrin beynəlxalq öhdəliklərini yerinə yetirməsinə mənfi təsir göstərir. Bu bir daha irqçilik və şovinizmin göstəricisidir. Hesab edirəm ki, başqa dövlətin ərazisini işğal etmiş, etnik təmizləmə həyata keçirmiş Ermənistan insan hüquqları barədə danışmaq haqqı olan ən axırıncı ölkədir. Yalandan və utanmadan özünü demokratiya carçısı, insan haqları müdafiəçisi kimi təqdim edən Ermənistan bizə görə narahat olmasın, diqqətini özündə geniş yayılmış insan haqları problemlərinin həllinə yönəltsin.

Ümumiyyətlə, Ermənistanın demokratiya və insan haqlarından danışmasının özü gülüncdür. Bu ölkədə 20 ilə yaxın hərbi xunta hakimiyyətdə olub, parlamentdə yüksəkvəzifəli dövlət rəsmiləri güllələnib, indiki baş nazir isə siyasi rəqiblərini “asfalta uzatmaq”la hədələyir və asfalta uzadır. Ermənistanda siyasətçilər, jurnalistlər siyasi baxışlarına görə təqib olunur. Jurnalist Mger Yegiazaryan türmədə aclıq aksiyasından sonra vəfat edib.

Sənəddə regiondakı təhdidlərə istinad edilir. Vurğulamaq istərdim ki, regionda ən böyük təhdid elə Ermənistan və onun işğalçı siyasətidir. Ermənistanın milli təhlükəsizliyinə ən böyük təhlükə də məhz elə Ermənistan və N.Paşinyan hakimiyyətinin siyasətidir.

Strategiyada qeyd edilir ki, Azərbaycan və Türkiyə Ermənistanı iqtisadi blokadada saxlayır və onu regional layihələrdən kənarda qoyur. Bu açıq həyasızlıqdır. Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğalda saxlaması şəraitində belə ittihamlarla çıxış etməsi heç bir əndazəyə sığmır.

Sənəddə bildirilir ki, Ermənistanın xarici siyasət baxışı beynəlxalq, millətlərarası və sivilizasiyalararası dialoqa əsaslanır. Ermənistanın belə tezislə çıxış etməsi çox gülüncdür. Bu reallığı əks etdirmir. Yuxarıda qeyd etdiyim kimi, Ermənistan öz ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında etnik təmizləmə aparıb, Azərbaycan xalqının mədəni və tarixi abidələrini dağıdıb, mənimsəyən bir dövlətdir. Belə dövlətin xarici siyasəti millətlərarası və sivilizasiyalararası dialoq üzərində qurula bilməz. 2016-cı ildə Ermənistan Azərbaycanda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu boykot etmiş yeganə ölkə olub. Bu bir daha Ermənistanın təşviq etdiyi dəyərlərlə BMT-nin Sivilizasiyalar Alyansının təbliğ etdiyi dəyərlərin tamamilə bir-birinə zidd olmasını göstərir.

Strategiyada Ermənistanın Yaxın Şərq ölkələri ilə münasibətlərinin inkişafından bəhs edilir. Ermənistan islam dünyasına aid dövlətin ərazisini işğal edib və onun islam irsini dağıdır. Müsəlman ölkələrinin belə bir dövlətlə hansı əməkdaşlığından söhbət gedə bilər. Hesab edirəm ki, Yaxın Şərq ölkələri bu məqamı nəzərə almalıdır.

Sənəddə qeyd olunur ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvlərinin bir-birinə münasibətdə müttəfiqlik öhdəliklərini yerinə yetirmələri və təşkilatın səmərəliliyinin artırılması istiqamətində iş aparacaq. Sanki Ermənistan bu təşkilatın sahibidir və onun digər üzvlərinə dərs keçəcək. Ermənistan KTMT-nin heç bir üzvü ilə məsləhətləşmədən onun keçmiş baş katibini həbs etdi, indi isə təşkilatın digər üzvlərinə öhdəlikləri barədə dərs keçmək fikrindədir. Uzun müddət KTMT-nin yeni baş katibinin təyin olunmasını boykot edən Ermənistanın özü bununla da təşkilatın səmərəliliyinə ən böyük zərbə vurub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Sorosun tör-töküntüləri KTMT-nin müttəfiqləri ola bilməz.

Strategiyada deyilir ki, Ermənistan azad söz və plüralizmi təbliğ edir, terrorizm və ekstremizmə qarşıdır. Halbuki bu tam yalandır. Bu yaxınlarda Los-Ancelesdə, Brüsseldə və dünyanın digər şəhərlərində ermənilər azərbaycanlılara barbarcasına hücum etdilər və onlara xəsarətlər yetirdilər. Bu, məhz Ermənistanın ekstremizm siyasətinin nəticəsidir. Erməni diasporu da əsassız, mifik erməni müstəsnalığı üzərində qurulmuş ideologiyanı təbliğ edir. Nəticədə diaspor öz dağıdıcı fəaliyyəti ilə Ermənistan-Azərbaycan münaqişəsinin də həllinə əlavə manеələr törədir.

Sənəddə “panermənilik” haqqında yer almış məqamlarla bağlı isə qeyd etmək istərdim ki, bu, faktiki olaraq digər ölkələrin daxili işinə qarışmaq anlamına gəlir. Çünki orada yaşayan ermənilər üçün Ermənistan tərəfindən istiqamət və prioritetlər müəyyən edilir.

Strategiyada ermənilərin Ermənistana repatriasiyası üçün şəraitin yaradılacağı qeyd edilir. Bununla da Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz məskunlaşma siyasəti üçün əlavə insan resursları əldə etmək niyyəti güdür.

Sənəddə Ermənistanda demoqrafik böhran, dərin yoxsulluq, sosial bərabərsizlik və sosial qütbləşmənin mövcudluğu açıq etiraf edilir və artan emiqrasiya başlıca problemlərdən biri kimi göstərilir. Bununla yanaşı, Ermənistanın iqtisadi inkişafı ilə bağlı bir sıra fikirlər yer alır. Lakin unutmaq olmaz ki, Ermənistan Azərbaycan torpaqlarını azad etməyənə qədər regional iqtisadi layihələrdən kənarda qalacaq, iqtisadi təcrid şəraitində yaşayacaq. Münaqişə həll edilmədiyi təqdirdə, Ermənistanda hər hansı iqtisadi inkişaf perspektivlərindən, eləcə də emiqrasiya, yoxsulluq, işsizlik və sosial bərabərsizliyin aradan qaldırılması barədə danışmaq mənasızdır.

Əhalinin sayının sabitləşdirilməsi və demoqrafik artıma nail olmaq Ermənistan dövlətinin məqsədi kimi qarşıya qoyulub. Lakin Ermənistan öz işğalçılıq siyasətini davam etdirəcəyi təqdirdə, heç cür bu məqsədlərə nail ola bilməyəcək və vəziyyət daha da pisləşəcək. Çünki insanların Ermənistanın gələcəyinə inamı yoxdur və Azərbaycanla qarşıdurmadan qorxan bir çox erməni ölkəni tərk edir.

Strategiyada Ermənistanın yüksək texnologiyalar mərkəzi kimi inkişafı prosesində elm-təhsil sisteminin roluna xüsusi önəm veriləcəyi qeyd olunur. Halbuki, elə strategiyanın özündə də etiraf edildiyi kimi, savadlı insanların ölkəni kütləvi surətdə tərk etməsi fonunda bu məqsədə necə nail olmaq olar?!

Sənəddə qeyd olunur ki, ermənilər arasında daxili problemlərin zorakılıqla həlli yolverilməzdir, azad məhkəmələr yolu ilə tənzimləmə olmalıdır. Əslində isə onsuz da azad olmayan məhkəmələrə siyasi təzyiqlər çoxalır, baş nazirin göstərişlərini yerinə yetirmək istəməyən Konstitusiya məhkəməsi sıxışdırılır və hakimlər dəyişdirilir.

Sənədin ətraf mühitə aid bölməsində məntiqlə Metsamor Atom Elektrik Stansiyası məsələsinə toxunulmalı idi, amma maraqlıdır ki, bu haqda heç bir istinad yoxdur. Halbuki fəal seysmik zonada yerləşən və istismar müddəti bitmiş bu AES, ilk növbədə, elə Ermənistanın özü üçün böyük təhlükə mənbəyidir.

Ümumiyyətlə, sənədin təhlili göstərir ki, Ermənistan diqqəti iqtisadi inkişaf, təhsil, elm kimi məsələlərə deyil, daha çox Azərbaycan və Türkiyəyə qarşı əsassız ittihamlara yönəldir. Bu, Ermənistan hakimiyyətinin gələcəyə baxışını xarakterizə edir. Əsas məqsəd erməni xalqını münaqişənin girovu kimi saxlamaqdır.

# Ankarada Azərbaycanın orden və medalının təqdimetmə mərasimi keçirilib

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrıma və qrupun sabiq rəhbəri Necdət Ünivara Azərbaycan Respublikasının “Dostluq” ordeni, Türkiyə Prezidentinin Baş müşaviri Yalçın Topçuya isə “BDU-100” xatirə medalı təqdim olunub.



AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycanın Türkiyədəki səfirliyində təqdimetmə mərasimi təşkil olunub. Mükafatları Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov təqdim edib.

Nazir Ceyhun Bayramov çıxışında bildirib ki, Türkiyə ilə münasibətlərin daha dinamik yüksəlişi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. İki ölkə arasında əməkdaşlıq bütün sahələrdə yüksələn xətlə inkişaf edir. Münasibətlərimizin inkişafında mühüm xidmətləri olan şəxslərin Azərbaycan dövlətinin başçısı tərəfindən təltif edilməsi dostluq və qardaşlığımıza daha bir bariz nümunədir.

Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binəli Yıldırım çıxışında qeyd edib ki, Prezident İlham Əliyev qardaş Türkiyə ilə münasibətlərin inkişafına böyük önəm verir. Azərbaycan Prezidentinin böyük siyasi təcrübəsi və yüksək intellekti sayəsində ərsəyə gələn strateji layihələr ölkələrimiz arasında münasibətləri daha da möhkəmləndirib.

Təltif edilənlər göstərilən diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər.

Çıxışlarda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri, eləcə də liderlərin qətiyyətli siyasi iradəsi, mühüm məsələlərdə sərgilədikləri prinsipial mövqelər Azərbaycan-Türkiyə əlaqələrinin dinamik inkişafında, iki ölkənin kompleks inkişafında mühüm təsirə malikdir.

Mərasimdə rəsmi şəxslər, Türkiyə Böyük Millət Məclisinin deputatları, sabiq nazirlər və digər görkəmli şəxslər iştirak edib.

# İLHAM ƏLİYEV Xəzərdəki “Qarabağ”ın qüdrətini özünə qaytardı

Neft-qaz yatağına geri dönüş və dənizdə ən böyük sualtı dayaq blokunun inşası Azərbaycanın real gücünün göstəricisidir

*Əvvəli 1-ci səh.*

Texnoloji baxımdan nəhəng və mürəkkəb konstruksiya olan “Qarabağ” dayaq blokunun istifadəyə verilməsi ilk növbədə Azərbaycanın qüdrətinin göstəricisidir. Eyni zamanda onu deməyə əsasə verir ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Buna görə də əminliklə deyə bilərik ki, növbəti illərdə “Qarabağ” və digər yataqlar da uğurla istismar ediləcək və Azərbaycana böyük fayda verəcək.

Onu da vurğulamalıyıq ki, tikintisi iki il ərzində aparılan konstruksiyanın hazırlanması prosesində mühüm amillərdən biri də yerli mütəxəssislərin iştirakıdır. Belə ki, dayaq blokunun tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub. Bu da onu deməyə əsas verir ki, Azərbaycan artıq investisiya yatıran və ya sərmayə yatırılan ölkə deyil, həm də böyük investisiya layihələrinin mühüm komponentlərini həll etməyi bacaran şirkətlər yetişdirmiş ölkədir. Artıq Azərbaycan şirkətləri beynəlxalq səviyyədə iş aparmaq gücünə malikdirlər.

## 22 il öncə tərk edilmiş “Qarabağ” yatağına qayıdış

“Qarabağ” yatağından hasilata gəlincə isə Prerzident dedi ki, əgər hər şey plan üzrə getsə, iki ildən sonra, yəni - 2022-ci ilin sonunda ilk qaz və ilk neft çıxarılacaq. Yatağın neft potensialı 60 milyon tondan çox səviyyədə qiymətləndirilsə də, dövlət başçısı hesab edir ki, işlənmə dövründə bu rəqəm daha da artacaq. Bu da əlbəttə ki, Azərbaycanda neft hasilatının sabit qalmasına və qaz hasilatının artmasına böyük töhfə verəcək.

Onu da qeyd edək ki, xarici mütəxəssislərin bu yataqla bağlı pessimist fikirləri “Qarabağ”ın tərk edilməsi ilə nəticələnmişdi. Ancaq yerli mütəxəssislərin yatağa olan inamlarının ölməməsi yenidən geri dönüşü reallaşdırdı.

Prezidentin də söylədiyi kimi Azərbaycan dövləti xarici tərəfdaşlarla bir çox yataqlar üzrə müqavilələr imzalasa da, heç də onların hamısı səmərə verməyib. Belə olan təqdirdə bir çox layihənin icrası dayandırılıb, onların icrasına xitam verilib. Yəni qazılmış quyular ümidləri doğrultmayıb. Ancaq “Qarabağ” yatağında aparılan işlərə xitam verilsə də yatağa olan inam ölməyib: “Hər zaman əminlik var idi ki, burada böyük potensial, böyük neft və qaz ehtiyatları vardır. Ancaq 1990-cı illərdə üç quyu qazılmışdı, xarici tərəfdaş artıq bəyan etmişdi ki, bu, gələcək investisiya səmərəsiz olacaq və beləliklə, “Qarabağ” yatağı tərk edilmişdir. Biz, əslində, heç nə itirmədik. Çünki Azərbaycan o kəşfiyyat dövründə öz üzərinə heç bir maliyyə öhdəliyi götürməmişdi. Əksinə, hətta uğursuz nəticə də nəticədir, bizə əlavə geoloji məlumat veribdir. Bu gün Azərbaycan vaxtilə - 1990-cı illərdə tərk edilmiş “Qarabağ” yatağına qayıdır və bu, nəhəng dayaq bloku bunun əyani sübutudur”.

## Dünyanın ən böyük qaz-kondensat yataqlarından biri Azərbaycandadır

Hazırda Azərbaycanda digər nəhəng neft-qaz layihələri də həyata keçirilir. Onların da icra vəziyyətinə diqqət çəkən cənab İlham Əliyev bütün layihələrin uğurla icra edildiyini söylədi.

Bəlli oldu ki, bu gün “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının işlənilməsi üzrə bütün işlər plan üzrə gedir. İnşa edilən yeni platforma onu göstərir ki, bu yataqların uzunmüddətli işlənməsi artıq reallıqdır. Qeyd edək ki, müqavilənin müddəti də uzadılıb və Azərbaycan bundan böyük fayda götürür. Prezident son illərdə ölkəmizə bir neçə milyard dollar dəyərində bonusun da ödənildiyini vurğuladı.

“Azəri”, “Çıraq” və “Günəşli” yataqlarında ən vacib məsələ isə hasilatın sabit saxlanmasıdır. Çünki bu yataq Azərbaycanın əsas gəlir mənbəyi hesab olunur. Ona görə də burada bütün işlər plana uyğun həyata keçirilir.

Eyni zamanda dünyanın ən böyük qaz-kondensat yataqlarından biri hesab olunan “Şahdəniz-2” layihəsi də uğurla icra edilir. “Şahdəniz-2”nin tammiqyaslı işlənilməsi Azərbaycana əlavə 16 milyard kubmetr qaz verəcək. Bununla da həm daxili tələbat ödəniləcək, həm də ixrac üçün böyük həcm yaranacaq.

| 1.5.3.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 177 476,0 | 177 476,0 | |
| 1.5.3.2 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 980 829,0 | 980 829,0 | |
| 1.5.3.3 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 1 632 806,0 | 1 632 806,0 | |
| 1.5.4 | Səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 547 768 402,0 | 1 547 768 402,0 | |
| 1.5.4.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 56 765 406,0 | 56 765 406,0 | |
| 1.5.4.2 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 14 894 285,0 | 14 894 285,0 | |
| 1.5.4.3 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 920 367,0 | 4 920 367,0 | |
| 1.5.4.4 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 2 604 706,0 | 2 604 706,0 | |
| 1.5.4.5 | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 10 960 782,0 | 10 960 782,0 | |
| 1.5.4.6 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 8 103 500,0 | 8 103 500,0 | |
| 1.5.4.7 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 3 691 711,0 | 3 691 711,0 | |
| 1.5.4.8 | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti | 8 971 000,0 | 8 971 000,0 | |
| 1.5.4.9 | Səhiyyə sahəsi üzrə əməyin ödənilməsi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 1 311 253 850,0 | 1 311 253 850,0 | |
| 1.5.4.10 | Səhiyyə sahəsinə aid digər tədbirlər | 119 000 000,0 | 119 000 000,0 | |
| 1.5.4.11 | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 6 602 795,0 | 6 602 795,0 | |
| 1.6 | Sosial müdafiə və sosial təminat | 3 237 037 216,0 | 3 232 376 439,0 | 4 660 777,0 |
| 1.6.1 | Sosial müdafiə | 305 828 436,0 | 305 828 436,0 | |
| 1.6.1.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 304 609 797,0 | 304 609 797,0 | |
| 1.6.1.2 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 218 639,0 | 1 218 639,0 | |
| 1.6.2 | Sosial təminat | 210 444 724,0 | 205 783 947,0 | 4 660 777,0 |
| 1.6.2.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 180 176 777,0 | 180 176 777,0 | |
| 1.6.2.2 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti | 25 607 170,0 | 25 607 170,0 | |
| 1.6.2.3 | Yerli icra hakimiyyəti orqanları | 4 660 777,0 | | 4 660 777,0 |
| 1.6.3 | Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 60 000,0 | 60 000,0 | |
| 1.6.3.1 | Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 60 000,0 | 60 000,0 | |
| 1.6.4 | Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 2 720 704 056,0 | 2 720 704 056,0 | |
| 1.6.4.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 128 009 127,0 | 1 128 009 127,0 | |
| 1.6.4.2 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 366 275 159,0 | 366 275 159,0 | |
| 1.6.4.3 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 763 770,0 | 763 770,0 | |
| 1.6.4.4 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsi öhdəliklərinin maliyyələşdirilməsi | 1 188 914 030,0 | 1 188 914 030,0 | |
| 1.6.4.5 | Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 14 610 000,0 | 14 610 000,0 | |
| 1.6.4.6 | Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı | 327 170,0 | 327 170,0 | |
| 1.6.4.7 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (Paralimpiya Oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 802 560,0 | 802 560,0 | |
| 1.6.4.7.1 | Əqli imkanları məhdud olan idmançılar üzrə | 300 960,0 | 300 960,0 | |
| 1.6.4.7.2 | Fiziki imkanları məhdud olan idmançılar üzrə | 501 600,0 | 501 600,0 | |
| 1.6.4.8 | Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 702 240,0 | 702 240,0 | |
| 1.6.4.9 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 20 300 000,0 | 20 300 000,0 | |
| 1.7 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 426 092 445,0 | 413 159 794,0 | 12 932 651,0 |
| 1.7.1 | Mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 175 250 865,0 | 173 223 933,0 | 2 026 932,0 |
| 1.7.1.1 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 155 791 941,0 | 155 791 941,0 | |
| 1.7.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 526 474,0 | 526 474,0 | |
| 1.7.1.3 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 748 044,0 | 748 044,0 | |
| 1.7.1.4 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 603 880,0 | 603 880,0 | |
| 1.7.1.5 | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 2 900 000,0 | 2 900 000,0 | |
| 1.7.1.6 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 2 194 306,0 | 2 194 306,0 | |
| 1.7.1.7 | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası | 8 706 348,0 | 8 706 348,0 | |
| 1.7.1.8 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 752 940,0 | 1 752 940,0 | |
| 1.7.1.9 | Yerli icra hakimiyyəti orqanları | 2 026 932,0 | | 2 026 932,0 |
| 1.7.2 | Televiziya, radio və nəşriyyat | 51 948 306,0 | 51 912 373,0 | 35 933,0 |
| 1.7.2.1 | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 33 000 000,0 | 33 000 000,0 | |
| 1.7.2.2 | Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı | 12 032 421,0 | 12 032 421,0 | |
| 1.7.2.3 | "Azərbaycan" nəşriyyatı (dövlət sifarişlərinin yerinə yetirilməsi) | 1 934 922,0 | 1 934 922,0 | |
| 1.7.2.4 | Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu | 4 133 184,0 | 4 133 184,0 | |
| 1.7.2.5 | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya | 601 920,0 | 601 920,0 | |
| 1.7.2.6 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 209 926,0 | 209 926,0 | |
| 1.7.2.7 | Radio və televiziya redaksiyalarının saxlanılması | 35 933,0 | | 35 933,0 |
| 1.7.3 | Bədən tərbiyəsi və gənclər siyasəti | 51 800 565,0 | 42 526 434,0 | 9 274 131,0 |
| 1.7.3.1 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 50 752 798,0 | 41 478 667,0 | 9 274 131,0 |
| 1.7.3.1.1 | Bədən tərbiyəsi və idmanın təşkili | 36 536 509,0 | 28 997 870,0 | 7 538 639,0 |
| 1.7.3.1.2 | Gənclər siyasəti | 14 216 289,0 | 12 480 797,0 | 1 735 492,0 |
| 1.7.3.2 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 1 047 767,0 | 1 047 767,0 | |
| 1.7.4 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 147 092 709,0 | 145 497 054,0 | 1 595 655,0 |
| 1.7.4.1 | Heydər Əliyev Mərkəzi | 10 481 325,0 | 10 481 325,0 | |
| 1.7.4.2 | Azərbaycanda Atatürk Mərkəzi | 411 048,0 | 411 048,0 | |
| 1.7.4.3 | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 274 050,0 | 1 274 050,0 | |
| 1.7.4.4 | Beynəlxalq Muğam Mərkəzi | 1 305 774,0 | 1 305 774,0 | |
| 1.7.4.5 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 32 423 187,0 | 32 423 187,0 | |
| 1.7.4.6 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 391 414,0 | 391 414,0 | |
| 1.7.4.7 | Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu | 266 986,0 | 266 986,0 | |
| 1.7.4.8 | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 6 271 032,0 | 6 271 032,0 | |
| 1.7.4.9 | Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsi | 4 578 240,0 | 4 578 240,0 | |
| 1.7.4.10 | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 5 523 650,0 | 5 523 650,0 | |
| 1.7.4.11 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (dini mərkəzlərə (idarələrə) verilən maliyyə yardımı) | 1 103 520,0 | 1 103 520,0 | |
| 1.7.4.12 | Siyasi partiyalara verilən maliyyə yardımı | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.7.4.13 | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 7 199 400,0 | 7 199 400,0 | |
| 1.7.4.14 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 10 453 344,0 | 10 453 344,0 | |
| 1.7.4.15 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 222 941,0 | 222 941,0 | |
| 1.7.4.16 | Yerli İcra hakimiyyəti orqanları | 1 595 655,0 | | 1 595 655,0 |
| 1.7.4.17 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 5 016 000,0 | 5 016 000,0 | |
| 1.7.4.18 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 16 727 743,0 | 16 727 743,0 | |
| 1.7.4.19 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələri üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 477 400,0 | 4 477 400,0 | |

Ardı 8-ci səh.

# “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında”Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 7-ci səh.*

| | | | | |
|---|---|---|---|---|
| 1.7.4.20 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 33 370 000,0 | 33 370 000,0 | |
| 1.8 | Mənzil və kommunal təsərrüfatı | 248 181 993,0 | 137 628 900,0 | 110 553 093,0 |
| 1.8.1 | Mənzil | 32 691 008,0 | | 32 691 008,0 |
| 1.8.1.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 32 691 008,0 | | 32 691 008,0 |
| 1.8.2 | Kommunal təsərrüfatı | 96 544 484,0 | 40 796 000,0 | 55 748 484,0 |
| 1.8.2.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 126 000,0 | 126 000,0 | |
| 1.8.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 7 670 000,0 | 7 670 000,0 | |
| 1.8.2.3 | “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 33 000 000,0 | 33 000 000,0 | |
| 1.8.2.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 55 748 484,0 | | 55 748 484,0 |
| 1.8.3 | Su təsərrüfatı | 42 104 900,0 | 42 104 900,0 | |
| 1.8.3.1 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 104 900,0 | 4 104 900,0 | |
| 1.8.3.2 | “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 38 000 000,0 | 38 000 000,0 | |
| 1.8.4 | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 76 841 601,0 | 54 728 000,0 | 22 113 601,0 |
| 1.8.4.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 240 000,0 | 3 240 000,0 | |
| 1.8.4.2 | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 35 000 000,0 | 35 000 000,0 | |
| 1.8.4.3 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 22 113 601,0 | | 22 113 601,0 |
| 1.8.4.4 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 16 488 000,0 | 16 488 000,0 | |
| 1.9 | Kənd təsərrüfatı | 897 675 885,0 | 897 675 885,0 | |
| 1.9.1 | Kənd təsərrüfatı tədbirləri | 444 141 190,0 | 444 141 190,0 | |
| 1.9.1.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 3 321 190,0 | 3 321 190,0 | |
| 1.9.1.2 | Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.9.1.3 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 6 570 000,0 | 6 570 000,0 | |
| 1.9.1.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması, habelə Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 2 600 000,0 | 2 600 000,0 | |
| 1.9.1.5 | Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 427 650 000,0 | 427 650 000,0 | |
| 1.9.2 | Baytarlıq | 32 100 000,0 | 32 100 000,0 | |
| 1.9.2.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 32 100 000,0 | 32 100 000,0 | |
| 1.9.3 | Meliorasiya | 412 097 695,0 | 412 097 695,0 | |
| 1.9.3.1 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 412 097 695,0 | 412 097 695,0 | |
| 1.9.4 | Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 9 337 000,0 | 9 337 000,0 | |
| 1.9.4.1 | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 9 337 000,0 | 9 337 000,0 | |
| 1.10 | Ətraf mühitin mühafizəsi | 273 314 265,0 | 102 439 569,0 | 170 874 696,0 |
| 1.10.1 | Bioloji zənginliyin qorunması | 7 549 978,0 | 7 549 978,0 | |
| 1.10.1.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 977 645,0 | 3 977 645,0 | |
| 1.10.1.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 3 572 333,0 | 3 572 333,0 | |
| 1.10.2 | Hidrometeorologiya tədbirləri | 11 878 386,0 | 11 878 386,0 | |
| 1.10.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 5 656 675,0 | 5 656 675,0 | |
| 1.10.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 6 221 711,0 | 6 221 711,0 | |
| 1.10.3 | Meşə təsərrüfatı | 15 039 693,0 | 15 039 693,0 | |
| 1.10.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 923 395,0 | 6 923 395,0 | |
| 1.10.3.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 8 116 298,0 | 8 116 298,0 | |
| 1.10.4 | Balıqçılıq və ovçuluq | 1 948 028,0 | 1 948 028,0 | |
| 1.10.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 805 998,0 | 805 998,0 | |
| 1.10.4.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 142 030,0 | 1 142 030,0 | |
| 1.10.5 | Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 227 989 180,0 | 57 114 484,0 | 170 874 696,0 |
| 1.10.5.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 6 450 000,0 | 6 450 000,0 | |
| 1.10.5.2 | “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 34 800 000,0 | 34 800 000,0 | |
| 1.10.5.3 | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 2 050 000,0 | 2 050 000,0 | |
| 1.10.5.4 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturun bərpası, yenidənqurulması və abadlaşdırılması | 13 400 000,0 | 13 400 000,0 | |
| 1.10.5.5 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 414 484,0 | 414 484,0 | |
| 1.10.5.6 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 170 874 696,0 | | 170 874 696,0 |
| 1.10.6 | Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 8 909 000,0 | 8 909 000,0 | |
| 1.10.6.1 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 8 909 000,0 | 8 909 000,0 | |
| 1.11 | İqtisadi fəaliyyət | 5 832 835 489,0 | 5 789 089 789,0 | 43 745 700,0 |
| 1.11.1 | Nəqliyyat və rabitə | 296 049 248,0 | 252 303 548,0 | 43 745 700,0 |
| 1.11.1.1 | “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000,0 | 10 010 000,0 | |
| 1.11.1.2 | “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 40 000 000,0 | 40 000 000,0 | |
| 1.11.1.3 | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 7 854 780,0 | 7 854 780,0 | |
| 1.11.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 9 808 768,0 | 9 808 768,0 | |
| 1.11.1.5 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 440 000,0 | 1 440 000,0 | |
| 1.11.1.6 | “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 28 000 000,0 | 28 000 000,0 | |
| 1.11.1.7 | Sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 65 000 000,0 | 65 000 000,0 | |
| 1.11.1.8 | Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi | 37 500 000,0 | 37 500 000,0 | |
| 1.11.1.9 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 52 690 000,0 | 52 690 000,0 | |
| 1.11.1.10 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 43 745 700,0 | | 43 745 700,0 |
| 1.11.2 | İqtisadi fəaliyyət və kommersiya fəaliyyəti | 75 457 927,0 | 75 457 927,0 | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 55 457 927,0 | 55 457 927,0 | |
| 1.11.2.2 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.11.3 | Tikinti və şəhərsalma | 4 910 561 800,0 | 4 910 561 800,0 | |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 061 800,0 | 1 061 800,0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 4 909 000 000,0 | 4 909 000 000,0 | |
| 1.11.3.3 | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 500 000,0 | 500 000,0 | |
| 1.11.4 | Geodeziya və faydalı qazıntılar | 15 303 800,0 | 15 303 800,0 | |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8 283 800,0 | 8 283 800,0 | |
| 1.11.4.2 | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 7 020 000,0 | 7 020 000,0 | |
| 1.11.5 | Yanacaq və enerji kompleksi | 4 700 000,0 | 4 700 000,0 | |
| 1.11.5.1 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 4 700 000,0 | 4 700 000,0 | |
| 1.11.6 | İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000,0 | 1 500 000,0 | |
| 1.11.6.1 | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 500 000,0 | 1 500 000,0 | |
| 1.11.7 | İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 529 262 714,0 | 529 262 714,0 | |
| 1.11.7.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 55 841 114,0 | 55 841 114,0 | |
| 1.11.7.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 3 900 000,0 | 3 900 000,0 | |
| 1.11.7.1.2 | Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya blanklarının çap edilməsi | 51 221 114,0 | 51 221 114,0 | |
| 1.11.7.1.3 | Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması | 720 000,0 | 720 000,0 | |
| 1.11.7.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 600 600,0 | 600 600,0 | |
| 1.11.7.3 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 37 700 000,0 | 37 700 000,0 | |
| 1.11.7.3.1 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 13 500 000,0 | 13 500 000,0 | |
| 1.11.7.3.2 | Ölkə ərazisində yerquruluşu, torpaqların kadastrı işlərinin təşkili | 22 000 000,0 | 22 000 000,0 | |
| 1.11.7.3.3 | Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.11.7.3.4 | “Qəbələ radiolokasiya stansiyasının inzibati təsərrüfat zonası və texniki mövqe” Məhdud Məsuliyyətli Cəmiyyəti | 1 200 000,0 | 1 200 000,0 | |
| 1.11.7.4 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.11.7.5 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 71 000 000,0 | 71 000 000,0 | |
| 1.11.7.6 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 956 000,0 | 956 000,0 | |
| 1.11.7.7 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 4 600 000,0 | 4 600 000,0 | |
| 1.11.7.8 | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki - iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması xərcləri | 4 500 000,0 | 4 500 000,0 | |
| 1.11.7.9 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 97 465 000,0 | 97 465 000,0 | |
| 1.11.7.10 | İqtisadi dəstək tədbirlərinin maliyyə təminatı | 236 600 000,0 | 236 600 000,0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 2 245 078 709,0 | 2 223 538 603,0 | 21 540 106,0 |
| 1.12.1 | Ehtiyat fondları | 690 000 000,0 | 690 000 000,0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 480 000 000,0 | 480 000 000,0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 210 000 000,0 | 210 000 000,0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 300 000 000,0 | 300 000 000,0 | |
| 1.12.2.1 | “Avtomobil yolları” məqsədli büdcə fondu | 300 000 000,0 | 300 000 000,0 | |
| 1.12.3 | Valyuta konvertasiyası | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4 000 000,0 | 4 000 000,0 | |

*Ardı 9-cu səh.*

# "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında"Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 dekabr tarixli 877 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 8-ci səh.*

| | | | | |
|---|---|---|---|---|
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 251 078 709,0 | 1 229 538 603,0 | 21 540 106,0 |
| 1.12.4.1 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.12.4.2 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 1 231 078 709,0 | 1 209 538 603,0 | 21 540 106,0 |
| 1.12.4.2.1 | İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 3 989 067,0 | 3 989 067,0 | |
| 1.12.4.2.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 32 631 536,0 | 32 631 536,0 | |
| 1.12.4.2.2.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi, həmçinin onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 14 594 346,0 | 14 594 346,0 | |
| 1.12.4.2.2.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 7 587 190,0 | 7 587 190,0 | |
| 1.12.4.2.2.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 450 000,0 | 450 000,0 | |
| 1.12.4.2.2.4 | Məhkəmə qərarlarının icrası və digər sosial-iqtisadi tədbirlər | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.12.4.2.3 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 51 900 000,0 | 51 900 000,0 | |
| 1.12.4.2.4 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.12.4.2.5 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 24 000 000,0 | 24 000 000,0 | |
| 1.12.4.2.6 | Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi | 30 000 000,0 | 30 000 000,0 | |
| 1.12.4.2.7 | İslahatlarla bağlı xərclər | 877 018 000,0 | 877 018 000,0 | |
| 1.12.4.2.8 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 21 540 106,0 | | 21 540 106,0 |
| 1.12.4.2.9 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 170 000 000,0 | 170 000 000,0 | |

2.2-ci hissəyə "1.9.1.2-ci" sözlərindən əvvəl "1.5.4.9-cu (Səhiyyə sahəsi üzrə əməyin ödənilməsi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər)," sözləri, "1.12.4.2.1-ci" sözlərindən əvvəl "1.11.7.10-cu (İqtisadi dəstək tədbirlərinin maliyyə təminatı)," sözləri, "yarımbəndlərində" sözündən əvvəl "1.12.4.2.9-cu (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi)" sözləri əlavə edilsin və həmin hissədə "və 1.12.4.2.7-ci" sözləri ",1.12.4.2.7-ci" sözləri ilə əvəz edilsin.

3. 3.2.2-ci yarımbəndə "1.5.1.7-ci," sözlərindən sonra "1.6.4.9-cu," sözləri əlavə edilsin.

4. 4.4.1-ci yarımbənddən"1.5.4.9-cu (Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər)," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2020-ci il*

# "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346, № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12 (I kitab), maddə 2255; 2018, № 6, maddə 1161; 2019, № 4, maddə 588, № 7, maddə 1177, № 12, maddə 1882) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.19-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.20-ci maddə əlavə edilsin:

"1.0.20. domen adlarının milli inzibatçısı - "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domen adlarının inzibatçılığını həyata keçirən səlahiyyətli şəxs.".

2. Aşağıdakı məzmunda 7.10-1-ci maddə əlavə edilsin:

"7.10-1. "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domen adlarının qeydiyyatı və onlara texniki xidmət üzrə ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmaqla, domen adlarının milli inzibatçısı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 149-VIQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 149-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12, maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə "17.2-ci maddəsində və 33.1.9-4-cü maddələrində" sözləri "7.10-1-ci, 17.2-ci və 33.1.9-4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

1.2. 2.12-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.13-cü bənd əlavə edilsin:

"2.13. həmin Qanunun 7.10-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 149-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti əhalisi 65122 nəfər olan 15 rayonun 24 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 24 ədəd subartezian quyusunun qazılmasını təmin etsinlər.

2. Bu Sərəncamın 1-ci hissəsində göstərilən məqsədlər üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 756,0 (yeddi yüz əlli altı) min manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 avqust tarixli Sərəncamına Əlavə*

### Qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Balakən | 1 | Sarıbulaq kəndi | 2631 |
| 2. | Beyləqan | 1 | Mil qəsəbəsi | 2456 |
| | | 1 | Milabad qəsəbəsi | 2465 |
| | | 1 | Yeni Mil qəsəbəsi | 2313 |
| 3. | Bərdə | 1 | Xanxanımlı kəndi | 398 |
| | | 1 | İkinci Nazırlı kəndi | 817 |
| | | 1 | Kələntərli kəndi | 2100 |
| 4. | Biləsuvar | 1 | Təzəkənd kəndi | 1879 |
| 5. | Cəlilabad | 1 | Üçtəpə kəndi | 8179 |
| 6. | Goranboy | 1 | Xınalı kəndi | 1018 |
| | | 1 | Yolqulular kəndi | 819 |
| 7. | Kürdəmir | 1 | Şilyan kəndi | 5436 |
| 8. | Quba | 1 | Vladimirovka kəndi | 3230 |
| 9. | Neftçala | 1 | Xol Qarabucaq kəndi | 2724 |
| 10. | Şabran | 1 | Çölquşçu kəndi | 901 |
| | | 1 | Pirəmsən kəndi | 862 |
| 11. | Şəmkir | 1 | Dəllər Cırdaxan kəndi | 3145 |
| 12. | Tərtər | 1 | İsmayılbəyli kəndi | 1549 |
| | | 1 | Sarov kəndi | 1870 |
| | | 1 | Səhləbad kəndi | 2142 |
| 13. | Ucar | 1 | Qazyan kəndi | 6868 |
| 14. | Yardımlı | 1 | Mirimli kəndi | 1642 |
| 15. | Zaqatala | 1 | Aşağı Tala kəndi | 7304 |
| | | 1 | Göyəm kəndi | 2374 |
| **Cəmi:** | | **24** | **24** | **65 122** |

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222; Azərbaycan Respublikasının 2020-ci il 30 mart tarixli 41-VIQD nömrəli, 24 aprel tarixli 62-VIQD nömrəli, 1 may tarixli 69-VIQD nömrəli, 8 may tarixli 94-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 370-2-ci maddə əlavə edilsin:

**"Maddə 370-2. Telekommunikasiya operatoru və provayderi tərəfindən sorğuların müəyyən edilmiş müddətdə cavablandırılmaması**

370-2.1. Telekommunikasiya operatoru və provayderi tərəfindən müvafiq icra hakimiyyəti orqanının, habelə məhkəmələrin və ya hüquq mühafizə orqanlarının sorğularına "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətlərdə cavab verilməməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

370-2.2. Bu Məcəllənin 370-2.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 may tarixli 1015 nömrəli, 22 may tarixli 1039 nömrəli, 2 iyun tarixli 1049 nömrəli, 18 iyun tarixli 1068 nömrəli, 3 iyul tarixli 1083 nömrəli, 10 iyul tarixli 1100 və 1104 nömrəli fərmanları) 4.15-ci bəndində "və 370-1.0.3-cü" sözləri ", 370-1.0.3-cü və 370-2.1-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli, 22 may tarixli 1039 nömrəli, 18 iyun tarixli 1069 nömrəli, 23 iyun tarixli 1073 nömrəli, 6 iyul tarixli 1085 nömrəli və 10 iyul tarixli 1100 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsinə "370-1," rəqəmlərindən sonra "370-2," rəqəmləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 145-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2020-ci il*

# Biz birlikdə güclüyük!

## Nümunəvi mübarizə modeli

### Müsbət dinamika dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qabaqlayıcı tədbirlərin göstəricisidir

*Əvvəli 1-ci səh.*



Vətəndaşları xəstəlikdən qorumaq üçün bütün sahələrdə lazım olan hər cür tədbirlər həyata keçirildi. Qısa müddət ərzində 20-dən artıq xəstəxana koronavirus xəstələrinin ixtiyarına verildi. Tibbi maska və gigiyena vasitələri istehsal edən müəssisələr açıldı. Prezident İlham Əliyevin sərəncamına əsasən, bölgələri də əhatə etməklə modul tipli xəstəxanalar quraşdırıldı. Beləliklə, ölkədə koronavirusla birbaşa mübarizə üçün 10 mindən artıq çarpayı yeri hazırlandı, 35 rayon və şəhərdə 46 xəstəxana bu istiqamətdə fəaliyyətə başladı. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün lazım olan laboratoriyaların sayı pandemiya başlayandan qısa müddət ərzində 5 dəfə artaraq 6-dan 31-ə çatdırıldı. Yaxın zamanlarda laboratoriyaların sayının 45-ə çatdırılması gündəmdədir. Ötən müddət ərzində ölkədə aparılan testlərin sayı isə 800 minə çatıb.

Bir müddət öncə ölkəmizə 40 yeni təcili tibbi yardım maşını gətirilib. Daha 60 maşının da gətirilməsi nəzərdə tutulub. Bölgələrə göndərilən bu maşınların xəstə vətəndaşlarımıza lazımi tibbi xidmətin, təcili tibbi yardımın göstərilməsi üçün böyük əhəmiyyəti var.

Səhiyyə infrastrukturunun pandemiya ilə mübarizəyə istiqamətləndirilməsi, xəstələrin dövlət hesabına müalicəsi ilə yanaşı, həkimlərin sayının artırılması və təcrübə mübadiləsi məsələləri də kompleks şəkildə həll olunur. Son iki ayda koronavirusla mübarizədə böyük fədakarlıq göstərən Azərbaycan həkimlərinin xarici həmkarları ilə təcrübə mübadiləsi aparmaları üçün Türkiyə, Rusiya, Kuba və digər ölkələrin tanınmış tibb mütəxəssislərinin ölkəmizə səfərləri təşkil edilib. Son günlər isə onlara Çindən gəlmiş həkimlər də qatılıb.

Pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün də dövlət tərəfindən mühüm tədbirlər həyata keçirildi. Təqribən 5 milyon nəfəri əhatə edən məşğulluq və sosial rifaha dəstək paketi icra olundu. Dövlət sektorunda çalışan 900 min nəfərin 80 faizi işə çıxmasa da, iş yeri və əməkhaqları qorundu. Dövlətin dəstəyi sayəsində özəl sektorun rəhbərləri 760 min nəfərin işsizliklə üzləşməsinin qarşısını aldılar. İşsizlər və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslər üçün 190 manat (yaşayış minimumu) birdəfəlik ödəmə verildi. Aprel-may aylarında ölkə üzrə 600 min şəxsə 225 milyon manat məbləğində vəsait ödənildi. Sərt karantin rejimi tətbiq edilən iyul ayında 16 şəhər və rayon üzrə 290 min şəxsə birdəfəlik ödəmə üçün ümumilikdə 55 milyon manat vəsait ayrıldı. Prezident İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı avqustun 6-da videoformatda keçirdiyi müşavirədəki tapşırığına əsasən, növbəti sosial dəstək tədbiri kimi, avqust ayında da sərt karantin rejimi tətbiq edilən 13 şəhər və rayon üzrə 190 manat həcmində birdəfəlik ödəmə veriləcək. Ödəmə həmin şəhər və rayonlar üzrə 278 min nəfəri əhatə edəcək və bunun üçün 53 milyon manat vəsait ayrılacaq.

Pandemiya ilə mübarizənin önündə gedən həkimlərin və digər tibbi heyətin əməkhaqları da artırıldı. İnsanların rifah halının yaxşılaşdırılmasına yönələn bu işlər əhali tərəfindən birmənalı olaraq yüksək qiymətləndirildi, dəstəkləndi və alqışlandı. Bunlar Azərbaycan dövlətinin öz vətəndaşını qorumaq üçün əlindən gələni əsirgəmədiyini göstərir.

Azərbaycanın bu təhlükəli virusa qarşı apardığı mübarizə dünyaya da nümunədir. Bunu həm beynəlxalq ekspertlərin rəyləri, həm də Ümumdünya Səhiyyə Təşkilatı rəhbərliyinin görülən işlərə verdiyi qiymət sübut edir. Bu da faktdır ki, ölkəmizdə pandemiyaya qarşı aparılan mübarizə dünyada nümunəvi Azərbaycan modeli kimi qəbul edilib.

Pandemiyanın elan olunduğu ilk gündən indiyədək Azərbaycanda koronavirusa qarşı mübarizə müsbət dinamika istiqamətində aparılıb. Vaxtında görülən zəruri tədbirlər sayəsində ölkədə vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Digər ölkələrdə xəstəliyə yoluxanların və ölüm hallarının sayı artdığı halda, ölkəmizdə sağalanların sayı yoluxanların sayından qat-qat çoxdur. Hazırda koronavirusa yoluxma sayı kəskin azalaraq ikirəqəmli həddə düşüb. Həm müalicəsi davam etdirilən aktiv koronavirus xəstələrinin, həm də reanimasiya şöbəsində müalicə alan və süni tənəffüs cihazına qoşulan xəstələrin sayı azalıb. İyulun 16-dan sonra yaranan müsbət dinamika ölkədə koronavirus xəstəliyinin fəsadlarının minimuma endirildiyi qənaətini yaradır. Bu, dövlət başçısının həyata keçirdiyi düşünülmüş qabaqlayıcı tədbirlərin göstəricisidir. Bu, koronavirusa yoluxma hallarının qarşısının alınması üçün Azərbaycan hökumətinin qəbul etdiyi qərarların bəhrəsidir.

Təbii ki, yoluxmanın azalması sərt karantin rejimindən yumşaldılmalara keçidi labüd edib. Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Avqustun 10-dan isə iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib.

Lakin yumşalma tədbirləri insanların sıxlığı və ünsiyyətin çoxalması ilə müşahidə olunur. Bu isə yenidən yoluxma sayının artması təhlükəsini istisna etmir. Bunun baş verməməsi üçün qorunma tədbirlərinə daha da ciddi əməl etmək lazımdır. Qaydalara əməl edilməməsi yoluxma sayının çoxalmasına və nəticədə yumşaltma sahəsindəki növbəti addımların təxirə salınmasına, qaydaların yenidən sərtləşdirilməsinə səbəb ola bilər. Ona görə də hazırda bu sahədə əsas məsuliyyət vətəndaşların üzərinə düşür. Yumşaldılmalar, rəqəmlərin azalması, hətta sıfıra enməsi belə, virus təhlükəsinin aradan qalxması düşüncəsinə, arxayınçılıq hissinə yol açmamalıdır. Arxada qoyduğumuz ayların təcrübəsi hər birimiz üçün ibrət dərsi olmalıdır. Bəşəriyyətin başı üzərini almış təhlükənin necə qorxulu və dəhşətli olduğu artıq hamıya aydındır. Onunla mübarizədə ehtiyatsızlıq, bir an sosial məsuliyyət hissinin itirilməsi fəlakətli nəticələrlə sonlana bilər. Ona görə də hər addımda, hər yerdə ehtiyatı əldən verməmək, məsuliyyət hissini itirməmək vacibdir. Karantin qaydalarına uyğun yaşamaq özümüz, doğmalarımız, ətrafımızda olanlar və sabahımız üçün lazımdır.

***Xəyalə MURADLI, "Azərbaycan"***

## Azərbaycan pandemiya ilə mübarizədə də öz gücünə arxalanır

*Əvvəli 1-ci səh.*

Tədbirlər planının ən əhatəli bölmələrindən biri məşğulluğa və sosial rifaha dəstəkdir. Burada həm məşğulluq, həm sosial müdafiə, həm də sosial təminat məsələləri öz əksini tapmışdır. Ölkə əhalisinin yarısı - 5 milyona yaxın insan geniş sosial paketlə əhatə olunmuşdur. Əsas məsələlərdən biri əmək müqaviləsi ilə işləyən insanların məşğulluğunun qorunması və təmin edilməsi idi. Odur ki, həm dövlət, həm də özəl sektorda 1 milyon 660 min insanın məşğulluğu davam etdirildi. Onların iş yerləri və əməkhaqları qorundu.

Daha bir istiqamət işsiz və gəlirini itirən aztəminatlı qeyri-formal işləyən şəxslər idi. Sözügedən müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bu istiqamətdə də bir sıra tədbirlərin həyata keçirildiyi barədə məlumat verdi. Belə ki, aprel, may və iyun aylarında onların hər birinə 190 manat ödəniş icra olunub. Dövlət başçısının tapşırığına uyğun olaraq, avqust ayında da 13 şəhər və rayon üzrə bu ödənişlər həyata keçiriləcək. Bu istiqamətlər üzrə indiyədək 280 milyon manat vəsait xərclənib.

İşsiz və qeyri-formal çalışan insanlar üçün yaradılan haqqıödənilən ictimai işlər proqramı bu dövrdə xüsusi əhəmiyyət kəsb etdi. Həmin iş yerlərinin sayı 90 minə qədər artırılıb. Onlardan 38 mini davamlı iş yerləridir.

Özünüməşğulluq proqramı genişləndirilib. Bu proqrama artıq Dünya Bankı, BMT-nin İnkişaf Proqramı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, yerli banklar da qoşulub. Bir sıra dövlət qurumları - İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "ASAN xidmət"in yanında ABAD, Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi kiçik və mikrosahibkarlığın, əhalinin məşğulluğunun təşkil edilməsi baxımından bu proqramın icrasına başlayıblar.

Həmçinin işsizlikdən sığorta mexanizminin sadələşdirilməsi və genişləndirilməsi üçün təkliflər hazırlanıb və Prezident tərəfindən büdcə dürüstləşməsi zərfi çərçivəsində Milli Məclisə təqdim olunub. Bu qanun layihələrinin qəbul edilməsi imkan verəcək ki, işsizlikdən sığorta ödənişinin həcmi 20 min insana artıq bu il ərzində çatdırılsın.

Pensiya, müavinət, təqaüdlər üzrə iki milyon şəxsi əhatə edən sosial ödənişlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz artıb və vətəndaşlara vaxtında, bir çox hallarda vaxtından əvvəl ödənilib. Xatırladaq ki, hazırda Azərbaycan minimum pensiya üzrə MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci, orta pensiya üzrə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerdə qərarlaşıb.

Sosial proqramların diqqətçəkən cəhəti odur ki, köməyə, dəstəyə, yardıma ehtiyacı olan heç kəs onlardan kənarda qalmayıb. Ünvanlı sosial yardım proqramı artırılıb, bu programa əlavə 14 min ailə cəlb olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial tərəfdaşların köməyi ilə 100 min ailəyə iki dəfə, yəni faktiki 200 min ərzaq payı təqdim edib. Beləliklə, əsasən əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud uşaqları olan ailələrə, çoxuşaqlı ailələrə, aztəminatlı digər kateqoriyadan olan insanlara dəstək tədbirləri göstərilib.

Yaşı 65-dən çox olan 15 min tənha şəxs nazirliyin sosial xidmətçiləri tərəfindən gündəlik xidmətə götürülüb. Mindən artıq əlilliyi olan, sağlamlıq imkanı məhdud uşağa sosial xidmət müəssisələrində gecəli-gündüzlü xidmət göstərilir.

Bütün bunlar görülmüş işlərin yalnız bir hissəsini təşkil edir. Belə ki, hazırda ölkədə çox böyük sosial layihələr həyata keçirilir və 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb. Əlbəttə, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması gəlirlərə mənfi təsir göstərib. Bununla belə, nəzərdə tutulmuş layihələrdən heç biri yarımçıq qalmayıb, yaxud ixtisar edilməyib.

Dövlət başçısının sözügedən müşavirədə də, ondan əvvəlki tədbirlərdə də bildirdiyi kimi, cari ildə rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq. Rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcək. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Bütövlükdə ən azı 9 minə yaxın ailəyə dövlət bu il mənzil verəcək.

Prezident İlham Əliyev bütün bu işlərin insanların rifahı üçün görüldüyünü və onların uğurla həyata keçirilməsinin dövlətlə xalqın birgə səyinin nəticəsi olduğunu vurğulamışdır: "Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik".

***Flora SADIQLI, "Azərbaycan"***

## Restoran və kafelər müştərilərə yeni qaydalarla xidmət göstərəcək

### İctimai iaşə müəssisələrinin fəaliyyəti pandemiya şərtlərinə uyğunlaşdırılıb

**Təəssüfləndirici reallıqdır ki, hazırda dünyada yeni tip koronavirusun qarşısını almaq və dayandırmaq müşkülə çevrilib. Göstərilən bütün səylərə baxmayaraq COVID-19 kiçik bir yumşalmadan böyük alovlanma ocağına çevrilib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəyərləndirməsinə görə, yaxın gələcəkdə mütəmadi olaraq yeni növ koronavirusa yoluxma hallarında artım müşahidə olunacaqdır.**



Bununla bağlı xəbərdarlıq edən ÜST-ün fövqəladə hallar proqramının icraçı direktoru Maykl Rayan Cenevrədə keçirilən brifinqdə qeyd edib ki, yoluxma hallarının artımına ikinci dalğa, ikinci pik nöqtə, yenidən alovlanma və sair kimi adlar vermək olar. Virus üzərində təzyiqi azaldan kimi o, yenidən sürətlə yayılmağa başlayır.

M. Rayan bildirib ki, insanlar virusa qarşı mübarizədə başqa açıqlamalar gözləsələr də, hazırda reallıq belədir və virusu dayandırmaq olduqca müşkülə çevrilib. ÜST ekspertinin fikrincə, indiki mərhələdə qarşıda duran vəzifə testlər, yoluxanların sosial çevrəsinin müəyyən edilməsi və lokal tədbirlər sayəsində yoluxmanın artmasını önləməkdən ibarət olmalıdır. Bununla da cari ilin yazında olan ümumölkə karantinlərinin tətbiqinin qarşısını almaq olar. Eyni zamanda diqqətə çatdırılıb ki, insanların kütləvi toplandığı yerlər virusun yayılması üçün münbit şərait yaradır və bu kimi toplantılardan çəkinmək lazımdır.

### Rəqəmlərin aşağı düşməsi epidemiyanın sönməsi demək deyil

Azərbaycanda da pandemiyanın təsirlərini minimuma endirmək və yoluxmanın qarşısını almaq üçün sistemli tədbirlər həyata keçirilir. Ölkədəki sanitar-epidemioloji vəziyyət araşdırılaraq uyğun addımlar atılır. Karantin rejimindən mərhələli şəkildə çıxmaq üçün mümkün həll yolları üzərində işlənilir. Görülən effektiv tədbirlər sayəsində hazırda vətənimizdə koronavirusa yoluxma hallarında müsbət dinamika müşahidə olunur.

Amma mütəxəssislər xəbərdarlıq edir ki, rəqəmlərin aşağı düşməsi pandemiyanın yox olması mənasına gəlmir. Bu ərəfədə diqqətli olmaq lazımdır ki, virusun yayılması daha da azalsın və əldə olunan müsbət tendensiya davamlı olsun.

Ölkənin baş infeksionisti Cəlal İsayev bildirir ki, koronavirusa yoluxma sayının 100-dən aşağı düşməsi əhalidə arxayınlıq yaratmamalıdır: "Rəqəmlərin 70-80 olması epidemiyanın sönməsi demək deyil. Rəqəmlər 30-35 olanda, biz bunu epidemiya hesab edirdik. Əgər tövsiyələrə əməl olunmasa, rəqəmlər yenidən yüksələ bilər".

### Masalararası məsafə 2, oturacaqlar arasındakı məsafə isə 1 metrdən az olmamalıdır

Hazırda atılan bütün addımlar, fəaliyyət istiqamətləri pandemiyanın şərtlərinə uyğunlaşdırılmalıdır. Artıq avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Ayın 10-dan etibarən isə mollar və iri ticarət obyektləri istisna olmaqla, qeyri ərzaq mallarının satışı ilə məşğul olan mağazalar fəaliyyətə başlayıb. Amma adıçəkilən yumşaldılmalar bir sıra vacib pandemiya qaydalarına əməl olunmasını tələb edir. Bununla əlaqədar müvafiq qurumlar tərəfindən qaydalar hazırlanaraq təqdim olunub. O cümlədən, ictimai iaşə müəssisələrinin də pandemiya dövründə necə fəaliyyət göstərəcəkləri ilə bağlı qaydalar açıqlanıb.

Qida Təhlükəsizliyi Agentliyinin məlumatında bildirilir ki, insanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq, ictimai iaşə müəssisələrində bir sıra qaydalara əməl olunmalıdır. Eyni zamanda həmin müəssisələrdə bu qaydalara əməl olunması üçün ictimai nəzarət təmin edilməlidir.

İctimai iaşə müəssisələrinə müştəri qəbulu 2 dəfə azaldılmalı və adambaşına müəyyən edilən sahə 2 qat artırılmalı, ictimai iaşə müəssisələrinin qida qəbulu zallarında, otaqlarda, habelə onların açıq hava sahələrində masalararası məsafə 2 metr, masalar arxasındakı oturacaqlar arasındakı məsafə isə 1 metrdən az olmamalıdır.

### Bu məkanlarda mütəmadi dezinfeksiya işləri aparılmalıdır

Qaydalara əsasən, bu məkanlarda mütəmadi dezinfeksiya işləri aparılmalı, hər bir masada dezinfeksiyaedici məhlulların yerləşdirilməsi təmin olunmalıdır. Qida qəbulu zallarında, otaqlarda, habelə onların açıq hava sahələrində sərinkeşlərdən (ventilyatorlardan) istifadə olunmamalı, təmizlik-dezinfeksiya işləri iş saatı ərzində əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatından sonra isə bütün sahələrdə həyata keçirilməlidir.

Müəssisə təmizlik vasitələri, dezinfeksiyaedici maddələr, axar isti və soyuq su təchizatı ilə daimi olaraq təmin edilməlidir. Sanitar məişət otaqlarının (sanitar qovşaq, soyunub geyinmə otağı və s.) işlək və təmiz vəziyyətdə saxlanılmalıdır.

İşçi heyət hər zaman şəxsi gigiyena qaydalarına ciddi riayət etməli, onların dəyişəkli təmiz iş geyimi olmalıdır. Gün ərzində bir çox insanla təmasda olduqlarından qoruyucu vasitələrlə və dezinfeksiyaedici məhlulla təmin olunmalıdırlar.

Məhsulların, mətbəxdə istifadə olunan əşya və avadanlıqların istifadədən əvvəl təmizliyinə diqqət yetirilməli, yeməklər hazırlanarkən termiki emala düzgün əməl olunmalıdır.

### Tətbiq olunan qaydalara riayət etmək mütləqdir

Bəli, ölkəmizdə tədricən normal həyata dönüş başlayır. Ardıcıllıqla sərt karantin rejimindən yumşaldılmalara keçilir. Təbii ki, yeni norma və şərtlərlə. Vətəndaşlarımız da tətbiq olunan qaydalara riayət edərək, pandemiyadan əvvəlki həyat şəraitimizə qayıtmanı daha da sürətləndirə bilərlər. Hər şey bizdən asılıdır və birlikdə əl-ələ verib bütün dünyanın mübarizə apardığı bu gözəgörünməz bəlaya qarşı savaşa qalxıb onu məğlub edə bilərik.

Qaydalara əməl edək, bacardıqca insan təmasından uzaq duraq, ehtiyac olmadığı halda küçəyə çıxmayaq, maskanın sağlamlığımızın təhlükəsizliyi üçün müstəsna rol oynadığını unutmayaq və gigiyena şərtlərini yerinə yetirək. Ən əsası, ictimai nəzarətçiyə çevrilərək, qoyulan qaydaların pozulmasına rast gəldiyimiz halda iradımızı bildirək, lazım olarsa, aidiyyəti qurumları məlumatlandıraq. Danılmaz həqiqətdir ki, vətəndaş məsuliyyəti bizi bütün təhlükələrdən, eləcə də sözügedən "taclı" bəladan qorumağa qadirdir...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## 202 nəfər sağalıb, 93 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 202 nəfər sağalıb, 93 yoluxma faktı qeydə alınıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 33 min 824 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 31 min 58 nəfər müalicə olunaraq sağalıb, 497 nəfər vəfat edib. Aktiv xəstə sayı 2269 nəfərdir.

Ötən müddət ərzində 804 min 513 test aparılıb. Dünənki test sayı isə 8054-dür.

## Sumqayıtda çimərliklər qaydalara uyğun fəaliyyət göstərir





Çimərliklər sərt karantin rejimindən sonra yenidən fəaliyyətə başlayıb. Xəzərin sahilində yerləşən Sumqayıtın, demək olar ki, böyük hissəsi dənizlə əhatələnib. Burada onlarca istirahət mərkəzi, Sumqayıt bulvarı, əhalinin normal şəkildə çimərlikdən istifadə edilməsi üçün hər bir şərait var.

Hazırda çimərliklər də karantin qaydalarına uyğunlaşdırılıb. Çimərlik doludursa, əlavə bir nəfər şəxs belə qəbul edilmir.

Çimərliklər açıldığı andan etibarən sumqayıtlılar dənizə üz tuturlar. Çimərliyə keçərkən mütləq şəkildə vətəndaşların temperaturu yoxlanılır, spirtlənir və əgər həmin çimərlik üçün limiti keçilməyibsə, o zaman onlar əraziyə daxil ola bilirlər.

Bu gün Sumqayıt çimərliklərində böyük canlanma var. Burada hər əraziyə çimərlik üzrə Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndələri, "ASAN könüllüləri", Fövqəladə Hallar Nazirliyinin xilasediciləri və polis əməkdaşları cəlb olunub. Həmin şəxslər isə vətəndaşlara çimərlikləri tam təhlükəsiz etmək üçün təhkim olunublar.

Çimərliklərdə də 5 nəfərdən artıq toplaşmaq qadağandır. Vətəndaşlar səhər saat 8:00-dan axşam saat 21:00-dək çimərliklərdən istifadə edə bilirlər. Həyata keçirilən bu qaydalar isə vətəndaşları narahat etmir. Onlar çox gözəl bilirlər ki, bütün atılan addımlar onların sağlamlıqları üçündür.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Qazaxda taxıl biçini başa çatıb

Hər kəsə yaxşı məlumdur ki, Azərbaycanda əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq bu sahədə mühüm yer tutur. Çünki taxılçılıq əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində də böyük rol oynayır.



Taxılçılığın inkişafı dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bunu son illər Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə kənd təsərrüfatında böyük çəkiyə malik olan taxılçılığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü işlərdən də görmək olur. Prezidentin qayğısı sayəsində bu sahənin inkişafı ilə bağlı dövlət tərəfindən torpaq mülkiyyətçilərinə verilən əlavə subsidiyalar, aparılan tədbirlər, yeni torpaq sahələrinin dövriyyəyə qatılması ölkədə taxılçılığın ilbəil genişlənməsinə gətirib çıxarır.

Dövlət başçısının taxılçılığın inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr, verdiyi tapşırıq və tövsiyələr son illər Qazaxda da uğurla icra olunur. Belə ki, dövlət və rayon rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğını, hər cür dəstəyi hiss edən, texnika və digər ləvazimatlarla təmin olunan fermerlər, kənd adamları rayonda taxılçılığın inkişafı üçün bu sahəyə marağı ildən-ilə artırırlar.

Qeyd edək ki, cari ildə Qazaxda 11 min 395 hektar sahədə taxıl əkilmişdir. Bunun 6916 hektarı buğda, 4479 hektarı arpa olmuşdur. Artıq taxıl biçini başa çatmışdır. Rayon Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, orta məhsuldarlıq 33,8 sentner olmuşdur ki, bu da keçən ilkindən çoxdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Baş Prokurorluq 14 iyulda baş verən hadisələrlə bağlı aparılan istintaq barədə yayılan dezinformasiyalara dair məlumat yayıb

Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində süni ajiotaj yaratmaq məqsədilə ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən iyulun 14-dən 15-nə keçən gecə ictimai asayişin pozulmasına səbəb olan hərəkətlərin təşkil olunması, bu cür hərəkətlərdə fəal iştirak edilməsi və xidməti vəzifələrini yerinə yetirən hakimiyyət nümayəndələrinə zor tətbiq etməklə müqavimət göstərilməsi ilə müşayiət olunan hərəkətlərin törədilməsi faktları ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində istintaq olunan cinayət işi üzrə guya bir neçə şəxsin işgəncə və qeyri-insani rəftara məruz qalması ilə bağlı Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində çəkildiyi iddia olunan fotolar yayılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin fotoların ölkə ərazisində çəkilməsi barədə iddialar tamamilə yalan və uydurma xarakter daşımaqla ictimai-siyasi sabitliyi pozmaq məqsədi güdür və cinayətkarlığa qarşı mübarizə sahəsində hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin üzərinə kölgə salmağa xidmət edir.

Azərbaycan Respublikası Baş Prokurorluğu qəti olaraq bildirir ki, fotolarda yer alan şəxslər şahid, şübhəli, o cümlədən təqsirləndirilən şəxs və ya hər hansı digər statusda istintaqa cəlb olunmayıb. Həmin şəxslərlə əlaqədar Baş Prokurorluğun İstintaq idarəsində heç bir istintaq hərəkəti aparılmayıb.

Baş Prokurorluq bəyan edir ki, ölkəmizin informasiya sahəsində milli maraqlarına zidd olmaqla qanunvericilik aktlarının tələblərini qəsdən pozaraq həyata keçirilən məqsədyönlü tədbirlərə inamsızlıq yaratmağa xidmət edən, qərəzli, ictimai rəyi çaşdırmaq məqsədi güdən dezinformasiyaların yayılması yolverilməzdir.

# Şəfahət Məmmədova təyin edilmiş cəzanın yüngül olması əsası ilə apelyasiya protesti verilib

Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olmaqda təqsirləndirilən şəxsin məhkəmənin hökmü ilə bir il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olunması ilə bağlı informasiyalar yayılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəfahət Məmmədovun Cinayət Məcəlləsinin 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli hərəkətlər etmə) maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə istintaq tamamlanaraq, ittiham aktı iyunun 16-da Lerik rayon prokuroru tərəfindən təsdiq edilib və iş baxılması üçün aidiyyəti üzrə Lerik Rayon Məhkəməsinə göndərilib.

Məhkəmənin 2020-ci il 30 iyul tarixli hökmü ilə Şəfahət Məmmədov Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirli bilinərək, ona bir il müddətə azadlıqdan məhrumetmə cəzası təyin olunub.

Hökmdən dövlət ittihamçısı tərəfindən Şəfahət Məmmədova təyin edilmiş cəzanın yüngül olması əsası ilə Şirvan Apelyasiya Məhkəməsinin Cinayət kollegiyasına apelyasiya protesti verilib.

## Beynəlxalq aləm

### Beyrutda toqquşmalar zamanı 42 nəfər yaralanıb

Livanın paytaxtı Beyrutun mərkəzində etiraz aksiyasının iştirakçıları və hüquq mühafizə orqanlarının əməkdaşları arasında toqquşmalar baş verib.

TASS informasiya agentliyinin verdiyi xəbərə görə, toqquşmalar nəticəsində hər iki tərəfdən xəsarət alanlar olub.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Livan cəmiyyətindən bildirilib ki, toqquşmalarda 42 nəfər xəsarət alıb, onlardan 10 nəfəri xəstəxanaya çatdırılıb.

Livanda hökumətə qarşı etiraz aksiyaları bir neçə gündür davam edir.

### Cənubi Koreyada 33 nəfəri sel apardı

Cənubi Koreyada aramsız güclü yağışların törətdiyi daşqınlar onlarla insanın ölümünə səbəb olub. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, leysan yağışlar nəticəsində 33 nəfər həlak olub, 8 nəfər xəsarət alıb, 9 nəfər isə itkin düşmüş sayılır.

Bildirilir ki, 7 mindən artıq insan təxliyə edilib, 6 minə yaxın yaşayış evinə, istixanalara, 2,5 min heyvandarlıq təsərrüfatına və anbarlara zərər dəyib.

Bundan əlavə, ölkə üzrə 27 min hektardan artıq kənd təsərrüfatı təyinatlı torpaq sahələri su altında qalıb.

### Ekvador həbsxanalarında fövqəladə vəziyyət elan edildi

Ekvador Prezidenti Moreno ölkənin həbsxanalarında fövqəladə vəziyyət elan etdiyini bildirib.

"Ciddi hadisələrlə əlaqədar olaraq, mən ölkənin Silahlı Qüvvələrinin penitensiar müəssisələrdə xaos yaradan mafiyaların nəzarətinə qoşulması üçün ölkə həbsxanalarında fövqəladə vəziyyət elan etmişəm. Bütün cəbhələrdə cinayətkarlıqla mübarizə aparmağa davam edirik!"- Moreno "Twitter"ində yazıb.

"İnterfax" agentliyinin xəbərinə görə, ötən həftə ölkə həbsxanalarından birində baş vermiş iğtişaşlar nəticəsində azı 11 nəfər həlak olub. Polis əməkdaşları da daxil olmaqla daha 15 nəfər yaralanıb.

# Paşinyan Ermənistanı cinayətkar ölkəyə çevirib

## Pandemiya fonunda sosial-iqtisadi durum kriminogen vəziyyəti xeyli ağırlaşdırır

Ermənistanda Paşinyan iqtidarına qarşı yaranan sosial narazılıq yüksələn xətt üzrə inkişaf etməkdədir. Bunu şərtləndirən əsas səbəblərdən biri sosial-iqtisadi problemlərin miqyasının durmadan genişlənməsi, həmçinin etiraz mövqeyi nümayiş etdirənlərə qarşı hakimiyyətin yenə də repressiv metodlardan faydalanmasıdır. Artıq işğalçı ölkədə belə fikir tərəfdarlarının sayı durmadan artır ki, Nikol Paşinyan iqtidarı dəyişməyənə kimi Ermənistanın üzləşdiyi problemlərdən xilası mümkün olmayacaq.

Yaranmış vəziyyətin sürətlə onun əleyhinə işləməsinin fərqində olan mövcud hakimiyyət isə insanların fikirlərini daxili və xarici siyasətdə baş verən hadisələrə yönəltmək istiqamətində fəaliyyətini genişləndirib. Belə ki, yenidən keçmiş hərbi xuntanı müdafiə edənlərin Ermənistanı parçalamağa cəhd göstərməkdə, ölkəni siyasi problemlər məngənəsinə yuvarlamaqda ittiham etməyə başlayıb. Bu məqsədlə hakimiyyət nəzarətdə saxladığı media orqanlarından geniş şəkildə istifadə edir.

"4rd.am" saytı yazır ki, hakimiyyətin istənilən cəhdinə baxmayaraq, onun iflası qaçılmazdır. Paşinyan hökuməti pandemiya fonunda bütün istiqamətlərdə uğursuzluğa düçar olub: "İqtidar bir məsələdə möhtəşəm uğurlara imza atıb. Bu da öz xalqının, dövlətin əmlakının talan edilməsidir. Hakim rejim ciddi təlaş içindədir və bunun əsas səbəblərindən biri hakimiyyətin ölkədə yaranan ağır sosial-iqtisadi vəziyyəti düzəltmək üçün, sözün əsl mənasında, tam aciz olmasıdır. Məhz sözügedən səbəbdən ölkədə sosial gərginlik durmadan artır və bunun əvvəl-axır sosial partlayış həddinə gəlib çıxacağı şübhə doğurmur".

Əhalinin maddi rifah halının daha sürətlə pisləşməyə başlaması, koronavirus səbəbindən yaranmış ağır vəziyyətdən xilas üçün hökumətin konkret nəticələr verə biləcək planlarının olmaması, korrupsiya və rüşvətxorluğun miqyasının əhəmiyyətli dərəcədə artması və bu qəbildən olan digər məsələlər əhalinin Paşinyan iqtidarından yaranan narazılığını həqiqətən də təhlükəli həddə çatdırır. Bu vəziyyət isə qeyd edildiyi kimi, Ermənistanda hər an sosial partlayışların olacağını şərtləndirən əsas amillərdən biri qismində çıxış edir. Elə müxtəlif təşkilatlar tərəfindən aparılan sosioloji sorğuların nəticələri göstərir ki, əhalinin böyük əksəriyyəti mövcud hakimiyyətin dəyişməsinin tərəfdarıdır. Çünki hakimiyyət tərəfindən həyata keçirilən siyasət Ermənistan əhalisinin böyük əksəriyyətinin faktiki olaraq aclıqla üzləşməsinə gətirib çıxarıb.

Ermənistanda sosial xarakterli etiraz aksiyalarının keçirilmədiyi gün yoxdur. Bu haqda məlumat verən "Lragir" yazır ki, Ermənistanın Amulsar bölgəsində eyni gündə bir neçə yerdə aksiya keçirilib. Bildirilir ki, əgər Paşinyan Amulsar dağ mədənini bağlamasa və məsələ ilə bağlı təcili tədbirlər görməsə, aprel inqilabının ideallarını zədələmiş, onu vəzifəyə gətirən əhalinin isə etimadını birdəfəlik itirmiş olacaq. Çünki ötən müddət ərzində Paşinyan bu istiqamətdə hansısa addım atmayıb: "Sosial xarakterli etiraz aksiyalarının keçirilmədiyi bir gün belə, yoxdur. Elə olur ki, bir gün ərzində bir neçə aksiya keçirilir. Əgər aksiyalar keçirilməsə, mətbuat bu haqda yazmır, hökumət, ümumiyyətlə, heç bir problemlə maraqlanmır. İnsanlar sosial problemlərinin həll olunmamasına görə aksiya keçirirlər. Halbuki bu məsələlər hökumətin diqqət ayırmalı olduğu əsas məsələlərdir. Sosial məsələ həmişə dövlətin diqqət mərkəzində olmalıdır. Əgər hansısa şəxsə və ya şirkətə elektrik stansiyası inşa etməklə bağlı icazə verilirsə, bundan əvvəl həmin ərazidə yaşayan əhaliyə heç bir ziyan dəyməməsi üçün müəyyən işlər görülməlidir".

Vurğulanır ki, bu tipli məsələlər hökumətin gündəlik iş qrafikinə daxil olmalıdır. Belə problemlər ancaq aksiya keçirildiyi zaman gündəmə gəlir. Hökumət bu problemləri həll edəndə isə daha çox işin reklam tərəfinə diqqət ayırır. Əslində problem aksiya keçirilənə qədər həll edilməlidir. Faktiki olaraq Ermənistanda dövlət sistemi iflic vəziyyətindədir. Ermənistanda gündəlik keyfiyyətli xidmət göstərən dövlət orqanı yoxdur.

Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, mövcud situasiya Ermənistanda sosial-iqtisadi zəmində olan cinayət hallarının artımı ilə müşayiət olunur. Buna qarşı görülən preventiv tədbirlər isə demək olar ki, nəticə vermir. Vurğulanır ki, aclıq və səfalətlə üzləşən insanların maddi ehtiyacları qarşılamaq üçün oğurluğa, başqasının əmlakını mənimsəməyə cəhd göstərməsi başa düşüləndir və bu halların sayının artmasının əsas günahkarı ölkəni problemlər məngənəsində boğan indiki iqtidardır. Araşdırmalar göstərir ki, son dövrlərdə paytaxt Yerevanla yanaşı, Ermənistanın digər şəhər və rayonlarında da cinayət hadisələrinin sayında əhəmiyyətli dərəcədə artım baş verib ki, bu da sözügedən ölkənin ümumilikdə cinayətkarlar məskəninə çevrilməkdə olduğunu göstərir.

Bölgələrdə də cinayətkarlıq səviyyəsi əsas etibarı ilə mülkiyyət oğurluğu, özgənin əmlakını qanunsuz yolla mənimsəmə və bu qəbildən olan qanunazidd əməllər hesabına çoxalmaqdadır. Məhz bu da iqtisadi problemlərin Ermənistan üçün daha bir fəsad yaratdığını, yəni ölkənin kriminogen durumunu xeyli ağırlaşdırdığını göstərir.

Təbii ki, bütün bunların fonunda Ermənistanda korrupsiyanın və rüşvətxorluğun miqyasının daha da artması əhalinin hakimiyyətdən narazılığını bir qədər də gücləndirir. Hadisələrin bu səpkidə inkişafı isə müxalif qüvvələrin fəallığının artmasına və hakimiyyət əleyhinə apardığı təbliğatın miqyasının əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olub.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Gəncə, Lənkəran, Ağdaş və Yevlax şəhərlərindən bir, iki və üç otaqlı olmaqla ümumilikdə 214 mənzilin satın alınması.

Təklif olunan mənzillər təmirli olmalı, kommunikasiya xətləri mövcud olmalı, kommunal borcları olmamalı və mənzillərin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilmiş çıxarışları olmalıdır. Səmərəli olduğu təqdirdə, heç bir tender təklifi tender predmetinin tam həcmdə icrasını təmin etmədikdə, tender predmeti iki və daha çox iddiaçı arasında bölünür.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (Əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı : 50,00 manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (12.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı; (12.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş);*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **16 sentyabr 2020-ci il tarixdə saat 18:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **24 sentyabr 2020-ci il saat 17.00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 sentyabr 2020-ci il saat 15.30-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

**Xüsusi qovluq və təbrik açıqcalarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : 150.00 (bir yüz əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş)*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;(12.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı; (12.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *bənzər işlərdə təcürbəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiq edici sənədlər təqdim olunmalıdır;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10.09.2020-ci il saat 14:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **11.09.2020-ci il saat 14:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə su sərfölçən cihazların quraşdırılmasına lazım olan mal-materialların satın alınması üzrə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2(iki) müqavilə) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W.I.F.T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **9 sentyabr 2020-ci il saat 18.00-a** qədər, tender təklifi və bank təminatını isə **17 sentyabr 2020-ci il saat 18.00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **18 sentyabr 2020-ci il saat 18.00-da** dövlət satınalmalarının vahid internet portalında həyata keçiriləckdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən videoçarxların hazırlanması və infoqrafika işlərinin satın alınması üzrə "Azərbaycan" qəzetinin 10 iyul 2020-ci il tarixli buraxılışında elan olunmuş müsabiqə Tender komissiyasının 12 avqust 2020-ci tarixli protokol qərarına əsasən açıq tender proseduru üzrə tələb olunan sənədlərin təqdim olunma müddəti 17 avqust 2020 -ci il saat 15:00 -a, müsabiqənin bitmə tarixi 25 avqust 18:00-a və zərflərin açılış tarixi 26 avqust 2020-ci il saat 15:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

# Atəşkəs rejimi 35 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 35 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex və Çinari, Çəmbərək rayonunun Cil kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə avtomatika sahəsinə lazım olan avadanlıq və mal-materialların satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **7 sentyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **15 sentyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı **16 sentyabr 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcək.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə *açıq tender elan edir*

**LOT-1** Kosmetik təmir materiallarının satın alınması;
**LOT-2** Yanğın siqnalizasiya sistemlərinə texniki xidmətin satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

eTenderdə iştirak etmək istəyən iddiaçılar LOT-1 Kosmetik təmir materiallarının satın alınması üzrə 25 AZN, LOT-2 Yanğın siqnalizasiya sistemlərinə texniki xidmətin satın alınması üzrə isə 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən “ASAN ödəniş” sisteminə keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 04 sentyabr 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 14 sentyabr 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 15 sentyabr 2020-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu ərzaq mallarının satın alınması üzrə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: (+99412) 498-77-53, faks: (+99412) 565-87-55, əlaqələndirici şəxslər: Əli Rzayev - daxili: 1005, hüquqi məsələlər üzrə Fatimə Səlimli-daxili: 8025) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 21 avqust 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 24 avqust 2020-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən, dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə 02.07.2020-ci il tarixdə keçirilmiş kotirovka sorğusu prosedurunun nəticəsinə əsasən “ALR İNVEST” QSC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 04 mart 2020-ci il tarixdə elan edilmiş “Ofis mebellərinin satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “Qardaşlar mebel-3” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “Qardaşlar mebel-3” MMC arasında 01 may 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Qubadlı Rayon İcra Hakimiyyəti tabeliyində olan Kommunal Müəssisələr Kombinatına 2020-ci il üçün xidməti minik avtomobili nəqliyyat vasitəsinin satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Ünvan: Qubadlı Rayon İcra Hakimiyyəti, Sumqayıt şəh., İnşaatçılar qəs. Tel:+99418-654-38-68, tel:+99450-286-39-69
Qeyd: Kotirovka sorğusuna dair sənədlər 11 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 17, 30 aprel və 9 iyun 2020-ci il tarixli nömrələrində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına su nasos aqreqatlarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların tender təklifləri formal tələblərə və tələb olunan malların müəyyən olunmuş texniki tələblərə uyğunsuzluğu halları aşkar olunduğu üçün tender proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Avtoşinlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Kipləyici manjetlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti Gəmi qapılarına, ilyuminatorlara və anbar qapaqları üçün rezin kipləşdiricilərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi “Azərişıq” ASC-nin İşlər İdarəsinin rəisi Sakit Baxışova qayınatası

**MAHMUDAĞA İSKƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəsimi Rayon Məhkəməsinin kollektivi Zəngilan Rayon Məhkəməsinin sədri Gülsarə İmanovaya həyat yoldaşı

**FEHRUZ MÖHÜBBƏT OĞLU İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Zəngilan Rayon Məhkəməsinin sədri Gülsarə İmanovaya əzizi

**FEHRUZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Humanitar Kollecinin direktoru Vaqif Əmiraslanov ATU-nun Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayevə qardaşı

**ƏLİFAĞA AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7268
Sifariş 1912
Qiyməti 40 qəpik